# Azərbaycan Ukraynaya tibbi ləvazimat göndərib



**Azərbaycandan Ukraynaya növbəti humanitar yardım partiyası yola salınıb.**

Bu barədə Ukraynanın Azərbaycandakı səfiri Vladislav kanevski məlumat verib

"Azərbaycan biznesi ilə birgə təşkil edilən növbəti humanitar yük Ukraynaya yola düşür - Xerson Onkoloji Xəstəxanası üçün generator avadanlığı və 600 kq tibbi yardım dəsti" - deyə diplomat Feysbukda bildirib.



## Türkiyə-Azərbaycan-Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşü keçiriləcək

**Türkiyə-Azərbaycan-Gürcüstan müdafiə nazirlərinin 9-cu üçtərəfli görüşü keçiriləcək.**

APA xəbər verir ki, üçtərəfli görüş dekabrın 21-də Türkiyənin Kayseri şəhərində baş tutacaq. İclasda Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov da iştirak edəcək.


№ 232 (5753), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 20 dekabr 2022-ci il (çərşənbə axşamı)





# Taksi əlverişli nəqliyyat növü deyil

### Avtobusdan istifadə edənlərin sayı gün keçdikcə daha da artacaq

**İlin əvvəlindən bu günə qədər avtobus istifadəçilərinin sayı kəskin artıb. Dövlət Statistika Komitəsinin məlumatında isə taksidən istifadə edənlərin sayında kəskin azalmaların olduğu vurğulanıb.**

Qeyd edək ki, yanvar-noyabr aylarında Azərbaycanda avtobuslarla 1 196 123,3 min sərnişin daşınıb ki, bu da illik müqayisədə 29,2 faiz çoxdur.

Hesabat dövründə minik taksilərindən 76 029 min nəfər istifadə edib ki, bu da illik müqayisədə 5,5 faiz azdır.

Nəqliyyat ekspertləri deyirlər ki, avtobus istifadəçilərinin sayının artması, taksidən istifadə edənlərin sayının isə azalması səbəbsiz deyil.



## NATO Bakı və İrəvan arasında etimadın gücləndirilməsində rol oynaya bilər

**Həqiqətən, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinə kömək edən bütün konstruktiv səyləri alqışlayıram.**

Bunu APA-ya müsahibəsində NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina deyib.

"Həqiqətən, normallaşma prosesinə kömək edən bütün konstruktiv səyləri alqışlayıram. Həmçinin bu baxımdan Avropa İttifaqının (Aİ) oynadığı mərkəzi rolu da alqışlayıram. İnanıram ki, NATO hər iki paytaxt arasında siyasi dialoq vasitəsilə etimadın gücləndirilməsində dəstəkləyici rol oynaya bilər. Lakin bizim birbaşa müzakirələrdə konkret mexanizm və ya rəsmi rolumuz yoxdur. Onu da əlavə etmək istəyirəm ki, normallaşma prosesini irəli aparmağa yönəlmiş bütün diplomatik səyləri dəstəkləməyə davam edəcəyik", - Stoltenberqin xüsusi nümayəndəsi qeyd edib.

## Əcnəbilər məcburi dövlət sosial sığorta haqqını ödəməkdən azad ediləcək



**Əcnəbilərin və ya vətəndaşlığı olmayanların yerli İT şirkətlərdə işləməsi üçün iş icazəsi lazım olmayacaq.**

Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən Miqrasiya Məcəlləsinə təklif edilən dəyişikliklərdə əksini tapıb.

(səh.2)

# Blokada ilə bağlı iddialar yalandır

### XİN: "Erməni təcili yardım maşınları Laçın yolundan sərbəst keçir"



© Trend News Agency

**Blokada ilə bağlı dezinformasiyanın əksinə olaraq, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nəqliyyat vasitələri və erməni təcili yardım maşınları Laçın yolundan sərbəst keçir.**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Tvitter hesabında bildirib.

"Belə hallar gün ərzində bir neçə dəfə təkrarlanır. Blokada ilə bağlı iddialar yalandır", - deyə pyalşımda qeyd edilib.

Qeyd edək ki, dünən Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) 1 xəstənin həkim və tibb bacısının müşayiəti ilə Xankəndidən Ermənistana aparılması üçün Azərbaycana tərəfinə müraciət edib.

Aksiya iştirakçıları Laçın-Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçməsinə şərait yaradıblar.

(səh.2)

# Vardanyanın planları tezliklə ifşa olunacaq

### Laçın-Xankəndi yolunda haqq, ədalət mübarizəsi gedir



© Trend News Agency

**Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası 8 gündür davam edir.** Aksiya iştirakçısı, "Beynəlxalq Avrasiya Mətbuat Fondu"nun əməkdaşı Zabil Məmmədov deyib ki, erməni separatçıları sərvətlərimizin talanmasına və mina terroruna son qoymalıdırlar. O təəssüflə ifadə edib ki, hər ay Azərbaycan vətəndaşları ermənilərin basdırdığı minalara düşərək sağlamlıqlarını itirir, yaxud şəhid olurlar:

"Hər kəsə məlumdur ki, Ermənistanın istehsal etdiyi minalar Azərbaycan ərazilərində, xüsusilə də mülki vətəndaşların əkin-biçin apardığı yerlərə basdırılıb.

(səh.3)



## Gələn il 240 iş günü olacaq

**2023-cü ilin iş və istirahət günlərinin sayı açıqlanıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən xəbərə görə, 2023-cü ildə beşgünlük iş həftəsində 240 iş günü (onlardan 7-si bayramqabağı və Ümumxalq Hüzn günü qabağı iş günləridir), iş günü hesab edilməyən 109 istirahət günü (onlardan 4-ü iş günü hesab edilməyən bayram günləri ilə üst-üstə düşməsinə görə müəyyən edilən), iş günü hesab edilməyən 19 bayram (4-ü istirahət günləri ilə üst-üstə düşən) və 1 Ümumxalq Hüzn günü var.

## Vəfat edən olmayıb

### 11 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 11 yeni yoluxma faktı qeydə alınıb, 10 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 825 420 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 814 879 nəfər müalicə olunaraq sağalıb, 9 993 nəfər vəfat edib, aktiv xəstə sayı 548 nəfərdir.

*Ölkədə son sutka ərzində 622, hazırkı dövrədək isə 7 407 971 test aparılıb.*

## Ucarda 16 yaşlı qız ərə verilib



**Ucar rayonunda yetkinlik yaşına çatmayan qızın toy mərasimi olub.**

"Report"un Yuxarı Şirvan bürosu xəbər verir ki, toy şənliyi dekabrın 17-də rayonun Qaracallı kəndində təşkil edilib.

Belə ki, kənd sakini 16 yaşlı qız (yetkinlik yaşına çatmadığı üçün adı göstərilmir) həmkəndlisi Qəribxan Lətifova ərə verilib.

Məlumata görə, bir həftə əvvəl cütlüyün qız toyu olub.

DİN-in Mətbuat Xidmətinin Şirvan regional qrupunun baş inspektoru, polis kapitanı Nizam Həmidov "Report"un yerli bürosuna bildirib ki, toy məclisi ilə bağlı artıq Ucar Rayon Polis Şöbəsində araşdırmalara başlanılıb.

*Aparılan araşdırmaların nəticəsindən asılı olaraq məsələyə hüquqi qiymət veriləcək.*



## Riçard Murun regiona səfəri məqsədlidir

İstisna deyil ki, Zəngəzur dəhlizinin ruslarsız həyata keçirilməsi planı var

(səh.4)



## İKT sahəsinə güzəştlər olmalıdır

Vahid Əhmədov: "Gəncləri xaricə göndəririk oxumağa, orada qalırlar"

(səh.4)



# Bakıda yeni hotelin açılışı olub

## Prezident İlham Əliyev və Mehriban Əliyeva mərasimdə iştirak ediblər

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 19-da paytaxtda ”The Ritz-Carlton Baku” hotelinin açılışında iştirak ediblər. Dövlət başçısı və birinci xanım hoteldə yaradılan şəraitlə tanış olublar. Məlumat verilib ki, hündürlüyü 130 metr olan hotel binası 33 mərtəbəlidir.**

”The Ritz-Carlton, Baku” hotelində 190 geniş qonaq otaqları, lüks mənzillər, restoranlar, fitnes və biznes mərkəzləri, müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı yaradılıb. Binanın 14 mərtəbəsi hotel otaqları üçün nəzərdə tutulub, 15-ci mərtəbədən başlayaraq yuxarı hissədə isə rezidensiyalar və mənzillər yerləşir. Qeyd edilib ki, binada korporativ toplantıların və xüsusi günlərlə bağlı tədbirlərin təşkili üçün də ideal şərait yaradılıb. Buradakı ”Şuşa” zalı işgüzar görüş və ya qala tədbirlərin keçirilməsi baxımından xüsusi məkandır. Bununla yanaşı, hoteldə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin adlarını daşıyan 12 əlavə iclas otağı yaradılıb. Bunlar ”Qarabağ”, ”Ağdam”, ”Cəbrayıl”, ”Qubadlı”, ”Tərtər”, ”Xocalı”, ”Füzuli”, ”Zəngilan”, ”Kəlbəcər, ”Xankəndi”, ”Xocavənd” və ”Laçın” otaqlarıdır. Bildirilib ki, binanın daxili dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin, tarixinin müxtəlifliyini və zənginliyi əks etdirir. Hotelin memarlığında Azərbaycana aid xüsusiyyətlərə - tarixin, incəsənətin, mədəniyyətin və müasir tendensiyaların vəhdətinə xüsusi diqqət yetirilib.

Qeyd edək ki, Azərbaycanda qeyri-neft sektorunun aparıcı sahəsi kimi turizmin inkişafı başlıca prioritetlərdəndir. Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş ”Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” bu sahəyə dövlət tərəfindən göstərilən diqqətin əyani təsdiqidir. Dövlət başçısının müəyyənləşdirdiyi uzaqgörən siyasət sayəsində Azərbaycanda müasir hotel infrastrukturunun yaradılmasına hələ uzun illər bundan əvvəl başlanılıb. Pandemiyanın yayıldığı 2020-ci ilədək hər il çox sayda turist ölkəmizə səfər edib, müasir turizm imkanlarından yararlanıb. Artıq dünyada olduğu kimi, ölkəmizdə də postpandemiya dövrü yaşanır. Bu isə öz növbəsində turist axınının artması ilə müşayiət olunur. Bu cür müasir və dünyaca məşhur hotel brendlərinin Azərbaycanda fəaliyyətə başlaması, şübhəsiz ki, postpandemiya dövründə turizmin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.

**İsmayıl**

# Rusiyalı ekspert beynəlxalq axtarışa verilib

## Mixail Aleksandrov Azərbaycan neft sənayesinin məhv edilməsinə çağırışlar etmişdi



**Rusiya Federasiyasının Moskva Dövlət Beynəlxalq Münasibətlər institunun hərbi-siyasi tədqiqatlar mərkəzinin aparıcı eksperti, hüquq elmləri doktoru Mixail Aleksandrovun cari ilin dekabrın 13-də müxtəlif kütləvi informasiya vasitələrində verdiyi geniş auditoriya kütləsinə ünvanlanan audiomüraciətində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərə xələl gətirməyə cəhd göstərərək ”Azərbaycanın bütün neft sənayesinin, enerji sisteminin raketlərlə bombalanması və tamamilə məhv edilməli olmasını” bildirməklə açıq çağırışlar edib.**

Bu barədə Baş Prokurorluq məlumat yayıb.

Məlumata görə, Mixail Aleksandrovun əməllərində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 101.2 (kütləvi informasiya vasitələri ilə təcavüzkar müharibəni başlamağa açıq çağırışlar), 214.2.3 (odlu silahdan istifadə etməklə terrorçuluğun törədiləcəyi ilə hədələmə) və 283.2.1, 283.2.2-ci (qulluq mövqeyindən yararlanaraq zor tətbiq etməklə milli nifrət və düşmənçiliyin salınması) maddələrinin tərkib əlamətləri olduğundan cari ilin dekabrın 19-da Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən həmin maddələrlə cinayət işi başlanmaqla ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub.

İttiham üçün əsas verən kifayət qədər sübutlar toplandığından Mixail Aleksandrovun Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi haqqında qərar qəbul olunmuş, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə İNTERPOL vasitəsilə beynəlxalq axtarışı elan edilib. Eyni zamanda bir sıra tərəfdaş dövlətlərin səlahiyyətli orqanlarına təqsirləndirilən şəxsin həmin ölkələrin ərazisinə daxil olduqda dərhal tutularaq istintaqa cəlb edilməsi üçün Azərbaycan Respublikasına verilməsinin təmin edilməsi məqsədilə müraciətlər göndərilib.

Hazırda cinayət işi üzrə intensiv istintaq tədbirləri davam etdirilir. Azərbaycan Respublikasının Baş Prokurorluğu bəyan edir ki, ölkəmizin milli mənafeyi, təhlükəsizliyi və ərazi bütövlüyü əleyhinə yönələn istənilən təxribat xarakterli fəaliyyətlə bağlı qanunla nəzərdə tutulmuş tədbirlərin görülməsi təmin olunacaq.



# İmzalarına hörmət etmirlər

## Ermənistan və Rusiya üzərlərinə götürdüyü öhdəlikləri yerinə yetirmir

**”Ermənistan 10 noyabr Bəyannaməsinin 4-cü, 9-cu bəndini yerinə yetirmir”. Bu barədə ”Şərq”ə politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, ümumiyyətlə, 4-cü bəndə silahlı erməni birləşmələrinin çıxarılmasını tamamilə qəbul etmir:**

”Halbuki 10 noyabr Bəyannaməsində hər hansı ”Dağlıq Qarabağ müdafiə ordusu” sözü işlənmir. Belə məsələyə ümumiyyətlə yanaşma yoxdur. Ermənistan rəsmilərinin ”müdafiə ordusu” dedikləri qanunsuz erməni silahlı birləşmələrdir və onların çıxarılması mütləqdir. Əgər 4-cü bənd yerinə yetirilmirsə, bəyannamənin 7-ci bəndi - əhalinin Xankəndi, Ağdərə və Xocavəndə qayıtması da mümkün deyil. Ermənistan bu bəndlərə əməl etməyəcəksə, niyə imza atıb?! Bəyannamənin imzalanmasından iki il keçib. Demək olar ki, Ermənistan və Rusiya üzərlərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Belə olan təqdirdə Azərbaycan da üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməlidir”.

**İsmayıl**

# Blokada ilə bağlı iddialar yalandır

## XİN: “Erməni təcili yardım maşınları Laçın yolundan sərbəst keçir”

**Blokada ilə bağlı dezinformasiyanın əksinə olaraq, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nəqliyyat vasitələri və erməni təcili yardım maşınları Laçın yolundan sərbəst keçir.**

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Tvitter hesabında bildirib.

”Belə hallar gün ərzində bir neçə dəfə təkrarlanır. Blokada ilə bağlı iddialar yalandır”, - deyə pyalşımda qeyd edilib.

Qeyd edək ki, dünən Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) 1 xəstənin həkim və tibb bacısının müşayiəti ilə Xankəndidən Ermənistana aparılması üçün Azərbaycana tərəfinə müraciət edib.




BQXK-nın Xankəndidən Ermənistana xəstə aparılması barədə müraciətinə Azərbaycan tərəfi müsbət cavab verib

Aksiya iştirakçıları Laçın-Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə maneəsiz keçməsinə şərait yaradıblar.

Dünən Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus humanitar avtomobil və təcili yardım maşını, rus sülhməramlılarından birinin ailə üzvlərinin olduğu avtomobil, eləcə də Rusiya sülhməramlılarına məxsus 10-dan artıq təminat avtomobili də aksiya keçirilən ərazidən maneəsiz keçiblər.

Qeyd edək ki, Azərbaycanın qeyri-hökumət təşkilatlarının nümayəndələri Rusiya sülhməramlılarının Şuşa şəhəri yaxınlığındakı postu yanında etiraz aksiyası keçirirlər. Onlar azərbaycanlı mütəxəssislərin Azərbaycan yataqlarının qanunsuz istismarı ilə bağlı monitorinq aparmaq üçün əraziyə buraxılmamasına etiraz edirlər.

*Xatırladaq ki, 2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə keçirilmiş müzakirələrin nəticəsi olaraq, dekabrın 10-da Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Əmlak Məsələləri Dövlət Xidməti və ”AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı ilkin monitorinqə başlamaq üçün Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərinə yola düşüb.*

*Monitorinq zamanı faydalı qazıntı yataqlarına, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarına yerində baxış və müxtəlif istiqamətlər üzrə monitorinq, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi nəzərdə tutulmuşdu. Lakin heyət Rusiya sülhməramlılarının müşayiəti ilə sözügedən yataqların yerləşdiyi ərazilərə gəlsələr də, hər iki istiqamətdə təxribatla üzləşiblər və monitorinq baş tutmayıb.*



# Əcnəbilər məcburi dövlət sosial sığorta haqqını ödəməkdən azad ediləcək

**Əcnəbilərin və ya vətəndaşlığı olmayanların yerli İT şirkətlərdə işləməsi üçün iş icazəsi lazım olmayacaq.**

Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən Miqrasiya Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Eyni zamanda, ”Sosial sığorta haqqında” qanuna təklif edilən dəyişikliklə isə əcnəbilər və ya vətəndaşlığı olmayanlar Azərbaycanda məcburi dövlət sosial sığorta haqqını ödəməkdən azad ediləcəklər.

# İranda SEPAH-ın 4 üzvü öldürülüb



**Bu gün İranın cənub-şərqində yerləşən Sistan və Bəlucistan vilayətinin Pakistanla sərhəd məntəqəsində İran İslam İnqilabı Keşikçilər Korpusunun (SEPAH) 4 üzvü öldürülüb.**

Trend-in məlumatına görə, bu haqda İran İslam İnqilabı Keşikçilər Korpusunun cənub-şərq qərargahı məlumat yayıb. Məlumata görə, naməlum silahlıların atəş açması nəticəsində 1 leytenant və 3 əsgər öldürülüb. SEPAH qüvvələrinin atəş açması nəticəsində silahlılar ölkə ərazisini tərk ediblər.

# Qara dəniz vasitəsilə sualtı kabel çəkiləcək

## Dördtərəfli saziş regionda “yaşıl enerji”nin inkişafı və ixracı ilə bağlı yeni imkanlar yaradacaq

**Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında ”yaşıl enerji”nin inkişafı və ötürülməsi ilə bağlı Strateji Tərəfdaşlıq sazişi imzalanıb. Rumıniyanın paytaxtı Buxarestdə baş tutan imzalanma mərasimində sənədi Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Rumıniya Baş naziri Nikolae-Yonel Çuke və Macarıstanın Baş naziri Viktor Orban imzalayıblar.**

Saziş dörd ölkənin milli və regional enerji təhlükəsizliyinin və Qara dəniz hövzəsində əlaqənin gücləndirilməsinə, enerji mənbələrinin şaxələndirilməsinə dair maraqları nəzərə alınmaqla hazırlanılıb. Qeyd olunub ki, hökumətlərarası saziş Azərbaycan və Rumıniya arasında ”yaşıl enerji”nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi layihəsinin reallaşdırılmasını təmin edəcək. Əlavə olunub ki, bu kabellə ötürülən elektrik enerjisi daha sonra Macarıstana və Avropa nəqletmə sistemi vasitəsilə qitənin qalan hissəsinə nəql ediləcək. Əlavə olunub ki, Qara dənizin dibi ilə elektrik enerjisi kabelinin çəkilməsi layihəsi daha əvvəl Avropa Komissiyasının prezidenti Ursula von der Leyenin iştirakı ilə Avropa İttifaqı ilə Azərbaycan arasında əldə edilmiş razılaşmanın tərkib hissəsidir.

Ekspertlər vurğulayıb ki, Avropanın enerji təhlükəsizliyinə yaranan təhdidlər qitə ölkələrini alternativ mənbələr axtarmağa vadar edir. Amma hazırkı geosiyasi vəziyyətdə Avropa üçün etibarlı tərəfdaş tapmaq çətindir. Çünki bir çox qaz və neft ölkəsi enerji resurslarından iqtisadi və siyasi təzyiq vasitəsi kimi istifadə edir. Bu isə Avropanın enerji təhlükəsizliyinə böyük təhdidlər yaradır. Amma ölkəmiz Bakı-Tbilisi-Ceyhan, Cənubi Qafqaz Qaz Kəməri, TANAP və TAP layihələrini uğurla həyata keçirməklə özünü Avropanın enerji bazarında etibarlı tərəfdaş kimi təsdiqləyə bilib. Bu səbəbdən, Avropa ölkələri Rusiya-Ukrayna müharibəsi fonunda qitəni təhdid edən enerji böhranına görə yenidən etibarlı tərəfdaş olan Azərbaycana üz tuturlar. Bununla da Azərbaycan-Avropa İttifaqı enerji tərəfdaşlığı yeni mərhələyə qədəm qoyub. Artıq 2022-ci ilin iyul ayından bəri Azərbaycanla-Avropa dövlətləri arasında enerji sahəsində 1 layihənin açılışı olub və 2 müqavilə imzalanıb.

Rumıniyanın enerji sahəsində nüfuzlu eksperti Mihai Nikuts isə əlavə edib ki, bölgənin elektrik enerjisi istehsalı baxımından sıxıntılarını nəzərə alsaq, Rumıniyada imzalanan Saziş enerji balansını tarazlaşdırmaq üçün bir şansdır. Həmçinin Şərqi Avropada istehsal edilən enerjinin böyük bir hissəsi fosil mənbələrdən gəlir və sonda istifadədən çıxarılmalı olacaq: ”Aİ-nin Rusiyadan qaz və neft məhsullarının idxalını dayandırmasını nəzərə alsaq, Azərbaycan Rumıniya və Avropa üçün zamanla daha çox əhəmiyyət kəsb edəcək. Azərbaycan boru kəmərləri vasitəsilə artıq Avropaya qaz ixrac edən ölkədir və ümid edirik ki, TAP boru kəmərinin gücü iki dəfə artdıqdan sonra daha çox qaz ötürüləcək”. Rumıniyada nəşr olunan nüfuzlu ”Geopolitika” jurnalının baş redaktoru, professor Vasile Simileanu isə əlavə edib ki, bu layihənin gerçəkləşdirilməsi Avropa İttifaqı üçün faydalı təsirləri olan, imzalayan dövlətlərin nüfuzunu artıracaq cəsarətli bir addımdır: ”Dörd dövlət bu layihə nəticəsində enerji müstəqilliyi qazanacaq, yeni iş yerlərinin yaradılmasına nail olacaq. Xüsusilə, enerji sahəsində ehtiyatları olmayan Macarıstan üçün layihənin əhəmiyyəti böyükdür. Azərbaycan öhdəliklərini yerinə yetirərək etibarlı tərəfdaş kimi çıxış edir. Eyni zamanda ölkəniz enerji resursları, xüsusilə də təbii qaz və neft bazarında aparıcı rol oynayır.



Buxarestin təşəbbüsü təhlükəsizliyimizi digər dövlətlərlə müqayisədə artıracaq. Azərbaycan öz enerji resursları ilə mühüm müqavilələr bağlayıb ki, bu da dünyada danılmaz faktdır. Azərbaycan Şərqi Avropanın enerji sahəsində geosiyasi və geostrateji əhəmiyyət kəsb edən dövlət olmaqla yanaşı, həm də Mərkəzi Asiya dövlətləri, xüsusilə Qazaxıstan və Özbəkistan üçün körpüdür, Türkiyə ilə birgə əksəriyyəti tamamlanan mühüm layihələrin təşəbbüskarı olan türkdilli dövlətdir. Azərbaycan bundan sonra da geostrateji və geosiyasi münasibətlərdə yüksəliş əldə edəcək”.

**Millət vəkili Vüqar Bayramov da bildirib ki, Rumıniya ilə Azərbaycan arasında elektrik enerjisinin nəqli üçün Qara dəniz vasitəsilə sualtı kabel çəkiləcək. Deputatın sözlərinə görə, saziş regionda ”yaşıl enerji”nin inkişafı və ixracı ilə bağlı yeni imkandır:** ”Avropa Komissiyası anlaşma ilə bağlı açıqlama yayaraq bunu ”Aİ-nin Cənubi Qafqazdakı tərəfdaşlığını inkişaf etdirəcəyini və hər iki regiona təmiz enerji keçidində kömək edəcəyini, eyni zamanda təchizat təhlükəsizliyini artıracağını bəyan edib. Brüssel etibarlı tərəfdaşlarla əməkdaşlığın getdikcə daha çox əhəmiyyət kəsb etdiyini bildirib. Bu anlaşma Xəzərdə bərpa olunan enerji istehsalı potensialının kapitallaşdırılması ilə bağlı dörd ölkə arasında əməkdaşlığın əsasını qoyacaq. Dördtərəfli hökumətlərarası saziş Rumıniya ilə Azərbaycan arasında bərpa olunan mənbələrdən elektrik enerjisinin nəqli üçün Gürcüstan və Qara dəniz vasitəsilə sualtı kabelin çəkilməsini nəzərdə tutur”.

**İsmayıl Qocayev**



“Burada mülki ermənilərə qarşı heç bir təhlükədən söhbət gedə bilməz”

# Vardanyanın planları tezliklə ifşa olunacaq

## Laçın-Xankəndi yolunda haqq, ədalət mübarizəsi gedir

**Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası 8 gündür davam edir. Aksiya iştirakçısı, ”Beynəlxalq Avrasiya Mətbuat Fondu”nun əməkdaşı Zabil Məmmədov deyib ki, erməni separatçıları sərvətlərimizin talanmasına və mina terroruna son qoymalıdırlar. O təəssüflə ifadə edib ki, hər ay Azərbaycan vətəndaşları ermənilərin basdırdığı minalara düşərək sağlamlıqlarını itirir, yaxud şəhid olurlar:**

”Hər kəsə məlumdur ki, Ermənistanın istehsal etdiyi minalar Azərbaycan ərazilərində, xüsusilə də mülki vətəndaşların əkin-biçin apardığı yerlərə basdırılıb. Bütün beynəlxalq qurumlardan, dünya dövlətlərindən xahiş edirik ki, ermənilərin mina terroruna son qoyulmasına köməklik göstərsinlər”. Z.Məmmədov xatırladıb ki, Qarabağda yaşayan dinc erməni əhalisi SSRİ dönəmindən azərbaycanlılarla bir yerdə yaşayıblar: ”Bizim onlarla heç bir problemimiz yoxdur. Bu gün bizim əsas problemimiz Qarabağda məskunlaşmış separatçılarladır. Çünki onlar hazırda həmin ərazilərdə olan sərvətlərimizi talan edirlər, ekoloji terror törədirlər. Dinc əhalinin yoldan rahat istifadəsi üçün bütün lazımi şərait yaradılır. Gələcəkdə onları Azərbaycan vətəndaşı kimi qəbul edib birlikdə yaşaya bilərik”.

Digər aksiya iştirakçısı Rəfael Bayramov isə vurğulayıb ki, aksiyaya Azərbaycan xalqına dəstək üçün gəlib: ”Azərbaycanda minadan zərərçəkmişləri təmsil edirik. Məqsəd sərvətlərin talanmasına qarşı çıxmaqdır. Həmçinin mina terroru nəticəsində xeyli sayda insan həlak olub, qazi olub. Qarşı tərəf buna son qoymalıdır”. Aksiya iştirakçısı, mina terrorundan zərər çəkən İntiqam Sarıyev də Ermənistanı mina terroruna son qoymağa çağırıb. Qeyd edib ki, minadan zərərçəkmişlər kimi burada olmağının səbəbi ərazilərimizdə ekoloji və mina terroruna etirazdır. Aksiya iştirakçısı vurğulayıb ki, əhalinin öz yurduna qayıtması üçün ərazilər minalardan təmizlənməlidir. Lakin Ermənistan nəinki dəqiq mina xəritələrini vermir, hətta ərazilərimizə yeni minalar basdırır.

Azərbaycan ərazilərində erməni ekoterrorizminə və təbii sərvətlərimizin qeyri-qanuni istismarına etiraz edən soydaşlarımız Haaqada da etiraz aksiyası və yürüş keçiriblər. Niderland-Azərbaycan təşkilatının təşəbbüsünə qoşulan azərbaycanlılar ermənilər tərəfindən ölkəmizin təbii sərvətlərinin qeyri-qanuni istismarının daha da gücləndiyi, həmin ərazidə monitorinq keçirmək cəhdlərinə imkan verilmədiyi barədə məlumatları Avropa ictimaiyyətinin diqqətinə çatdırıblar. Ekoloji terrorizmə qarşı şüarlar səsləndirən, çağırışlar edən aksiya iştirakçıları Qarabağa toplaşan azərbaycanlı etirazçıların tələblərinin haqlı olduğunu, onları dəstəklədiklərini bildiriblər. Soydaşlarımız ermənilərin uzun illərdir həyata keçirdikləri ekoloji terrorizmin bütün regionu təhdid etdiyini vurğulayıblar. Siyasətçiləri, beynəlxalq təşkilatları məsələyə adekvat reaksiya göstərməyə, bu cür cinayət halları qarşısında susmamağa, daha həssas davranmağa çağırıblar.

Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus təminat avtomobillərinin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb. Nəqliyyat vasitələri maneəsiz şəkildə keçiblər. Bir daha bəyan edilib ki, Azərbaycanlı fəallar ermənilərin mülki avtomobillərinin Laçın yolu ilə keçməsinə mane olmurlar. Rəsmi Bakı Laçın yolu ilə bağlı hər zaman birmənalı bildirib ki, bu yoldan qeyri-qanuni iqtisadi və hərbi fəaliyyət üçün deyil, yalnız humanitar məqsədlər üçün istifadə etmək olar. Əslində, ermənilərin mülki avtomobillərinin bu yoldan keçməsinə faktiki olaraq Qarabağda erməni əsilli Azərbaycan vətəndaşlarını girov saxlayan və Şuşa-Laçın yolunda dinc aksiyanı ”ermənilərin blokadası və humanitar fəlakət” kimi təqdim etmək istəyən Ruben Vardanyan əngəl törədir. Onun erməniləri təxribata sürükləyən çağırışları da buna dəlalət edir. Xankəndidə izdihamlı mitinq görmək istəyən, lakin buna nail ola bilməyən Vardanyan əvəzində Ağdərə şəhərində və Xocavənd rayonunun mərkəzində təxribat məqsədli görüşlər keçirib. Onu görüşlərdə separatçı rejimin nümayəndələri müşayiət ediblər. Vardanyan Ağdərədəki qızıl və mis yataqlarını qanunsuz istismar edən ”Base Metals” şirkətində olub, onun rəhbərliyi və işçiləri ilə görüşüb. Mövcud vəziyyətdən və Azərbaycanın həyata keçirdiyi siyasətdən danışan milyarder təxribatçı çağırışlar səsləndirib. Qarabağdakı mülki ermənilərlə görüşdə Vardanyan hazırkı vəziyyətdə iki ssenarinin olduğunu qeyd edib: ”Birincisi döyüşməkdir. Etiraf etmək lazımdır ki, noyabrın 9-dan sonra bizdə sülh yoxdur, əslində müharibə davam edir. Hələ ki ciddi informasiya müharibəsi gedir”. Vardanyan deyib ki, ikinci ssenari ermənilərin Qarabağdan getməsidir ki, bu da onlar üçün qəbuledilməzdir.




**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ”Şərq”ə bildirib ki, separatçıların qanunsuz fəaliyyətləri ilə bağlı monitorinq keçirmək istəyən eko-fəalların və QHT nümayəndələrinin Şuşa-Xankəndi yolunda günlərdir davam edən etiraz aksiyası və yeni tələblərin irəli sürülməsi tamamilə təbiidir. Partiya rəhbəri vurğulayıb ki, nə separatçılar, nə də sülhməramlıların rəhbərliyi bu tələblərə qarşı hər hansı bir irad bildirə bilər:** ”Aksiya iştirakçıları haqlı olaraq Azərbaycanın suveren torpaqlarında dövlət qurumlarının nəzarətinin bərpa edilməsini tələb edirlər. Habelə Laçın istiqamətində Ermənistanla sərhəddə ayrıca sərhəd və gömrük postlarının qoyulmasını istəyirlər. Bu tələblər bizim üçün həyati əhəmiyyətli, prinsipial tələblərdir. Çünki 2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli bəyanatın müddəaları hələ də tam icra olunmadığına görə bu məsələlər də öz həllini tapmayıb. Azərbaycan xalqı artıq 2 ildən çoxdur 10 noyabr razılaşmasının məlum bəndlərinin icra ediləcəyini gözləyir. Lakin Rusiya sülhməramlılarının fəaliyyətsizliyi və onların öz missiyasının öhdəsindən gələ bilməməsi sonda Azərbaycanın ictimai fəallarının hərəkətə keçməsinə və Laçın-Xankəndi yolunda etiraz aksiyasına başlamasına səbəb oldu. Sülhməramlılar birmənalı olaraq bilməlidirlər ki, vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarımızın keçirdiyi bu etiraz aksiyası Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisidir. Bizim xalqın səbri limitsiz deyil. Ona görə də Rusiya sülhməramlılarının rəhbərliyi xalqımızın gözləntilərinə və vətəndaş cəmiyyətinin mövqeyinə hörmətlə yanaşmalıdır”.

*Ə.Hüseynov qeyd edib ki, sülhməramlıların komandanı general Andrey Volkovun şübhəli davranışları və separatçılara himayəçilik etməsi gərginliyin yaranmasında və aksiyanın başlanmasında əsas rol oynayan amillərdən biri olub:* ”Bu mənada aksiyaçıların əsas tələblərindən biri də məhz Rusiya sülhməramlılarının rəhbəri general Volkovun əraziyə gəlməsindən ibarətdir. Aksiyaçılar bu ermənipərəst generaldan öz dövlətinin liderinin - Vladimir Putinin imzasına hörmətlə yanaşmağı və 2020-ci ildə bağlanmış Üçtərəfli bəyanatın şərtlərinə riayət edilməsini tələb edirlər. Sözügedən aksiyanın bir digər səbəbi isə artıq hər kəsə məlumdur. Bu da Azərbaycanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərdə faydalı qazıntı yataqlarının qanunsuz istismarı və onun törətdiyi fəsadlarla bağlı ilkin monitorinqinin növbəti təxribat nəticəsində baş tutmaması ilə bağlıdır. Hərçənd, sülhməramlı kontingentin komandanlığı ilə Azərbaycan tərəfi arasında monitorinqə başlamaq barədə razılıq əldə olunmuşdu. Lakin sonradan sülhməramlılarla Qarabağdakı qanunsuz erməni dəstələrinin birgə təxribatı bu monitorinqin baş tutmasına imkan vermədi. Bizim monitorinq heyətimizin Rusiya sülhməramlılarının gözü qarşısında ”Qızılbulaq” qızıl və ”Dəmirli” mis-molibden yataqlarının yerləşdiyi ərazilərə girişinə maneə törədildi. Başqa sözlə desək, separatçılar və sülhməramlılar ekoloqlarımızın faydalı qazıntı yataqlarını yoxlamaq istəyindən narahat oldular, ona görə də təxribata əl atdılar. Bunu görən Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Laçın-Xankəndi yolunda etiraz aksiyası keçirməkdən və sülhməramlıların fəaliyyətsizliyinə tənqidi münasibət sərgiləməkdən başqa bir yolu qalmadı. İndi Rusiya mediasının və Ruben Vardanyan kimi ”oyuncaq” fiqurların durub Şuşa-Laçın yolunda təşkil olunmuş etiraz aksiyasının səbəbləri və məqsədlərini qəsdən təhrif etmələri onsuz da əsl həqiqəti dəyişmir.

**Əlisahib Hüseynov bildirib ki, Rusiya və Ermənistanın rəsmi dairələri aksiyanın Qarabağda yaşayan mülki ermənilər üçün hər hansı ”təhdid yaratması” kimi absurd iddiaları tirajlamaqdan əl çəkməlidir:** ”Burada mülki ermənilərə qarşı heç bir təhlükədən söhbət belə gedə bilməz. Çünki bu aksiya hər şeydən öncə sülh aksiyasıdır və biz mülki ermənilərə öz vətəndaşlarımız kimi yanaşırıq. Ona görə də guya, aksiya səbəbindən Qarabağ ermənilərinin yaşadığı ərazilərin qazla təchizatının bizim tərəfimizdən dayandırılması ittihamı da tamamilə əsassızdır. Azərbaycanı qaz təchizatını kəsməkdə ittiham etmək yalnız Ermənistan rəhbərliyinə və Ruben Vardanyan kimi imperiya nökərlərinə yaraşan xüsusiyyətdir. Dünya birliyini bu cür dezinformasiyalarla aldatmaq heç bir əxlaqi, etik normalara sığmır. Ümid edirik, dünya ictimaiyyəti aksiya iştirakçılarının guya, Laçın yolunu bağlayaraq Xankəndidə və ətraf ərazilərdə yaşayan ermənilərin blokadaya alınması, humanitar fəlakətə və ya etnik təmizləməyə məruz qalması haqqında Ermənistanın təbliğat maşınının uydurduğu yalanlara inanmayacaq. Əsl həqiqətin erməni tərəfinin və Rusiya mediasının uydurduğu kimi deyil, tam fərqli biçimdə olduğunu ən azından dünya ekoloji təşkilatlarının təmsilçiləri gəlib yerindəcə yoxlaya bilərlər. Ermənistan və Rusiyanın qeyri-obyektivliyi hər kəsə bəllidir. Ona görə də dünya birliyi Laçın-Xankəndi yolunda baş verən proseslərə Ermənistan və Rusiyanın ”pəncərə”sindən baxmamalıdır”.

**İsmayıl Qocayev**

# Qərb Saakaşvilini satdı

## İndi uzaqdan onun ölümünü izləyirlər



**Gürcüstanda sabiq Prezident Mixeil Saakaşvilinin tərəfdarları Bidzina İvanişvilinin biznes mərkəzinin yaxınlığında hazırda həbsdə olan eks rəhbərə dəstək aksiyası keçiriblər. Mitinqdə partiya sədrliyinə iki namizəd - Giorgi Mumladze və Levan Xabeişvili də iştirak ediblər.**

Mumladze bildirib ki, dekabrın 22-dən sonra Bidzina İvanişvilinin Çorvila, Abastumani və Şekvetilidəki digər evlərinin yaxınlığında da oxşar etiraz aksiyaları təşkil olunacaq: ”Bidzina İvanişviliyə konkret mesaj verməliyik ki, məhkəmə Saakaşvilini ən pis vəziyyətdə həbsxanada saxlasa, bu onun üçün ölüm hökmü olacaq. Bu halda Bidzina İvanişvilinin evləri etirazın episentrinə çevriləcək və davamlı aksiyalar olacaq. O, həmişə belə hərəkətlərdən qorxur, ona görə də polisi tam səfərbər edir. Yəqin ki, polis gücündən istifadə etməklə qorunacaq və evə qapanacaq”.

Gürcüstan Prezidenti Salome Zurabişvili də deyib ki, ölkədə qütbləşmə yaradan əsas problemlərdən biri Saakaşvili məsələsidir. Onun sözlərinə görə, spekulyasiyalara son qoymaq və dekabrın 22-də hansı qərarın veriləcəyini gözləmək lazımdır. Zurabişvili bildirib ki, Gürcüstan əhalisi qütbləşməyə son qoymaq istəyir: ”Əhalimizin istəkləri aydındır, onlar qütbləşməyə son qoymaq istəyirlər. Yeni qüvvələr, fiqurlar və Gürcüstanın gələcəyi üçün yeni perspektivlər görmək istəyirlər. Bu ölkə və onun nüfuzu üçün, daxili sabitlik çox vacibdir. Gürcüstan xalqının bu vəziyyətdən çıxmasına icazə verin”.

Ədliyyə naziri Rati Breqadze bildirib ki, Saakaşviliyə bir il ərzində təxminən iki yüz min lari (təxminən 128 min manat) xərclənib. Onun sözlərinə görə, Mixeil Saakaşviliyə həmişə tibbi xidmət göstərilib və indi də göstərilir: ”Ədliyyə Nazirliyi hər bir məhkuma tibbi xidmət göstərmək üçün məsuliyyət daşıyır. Saakaşviliyə həmişə tibbi xidmət göstərilib və indi də göstərilir. O, Gürcüstan qanunvericiliyinə uyğun olaraq Tbilisidə fəaliyyət göstərən tibb müəssisəsindədir, klinikada palatada yerləşdirilib və tibbi xidmət göstərilir. Bir il ərzində təqribən Saakaşviliyə 200 min lari, digər bir məhbusun saxlanmasına isə təxminən 17 400 lari xərclənir”. Nazir həmçinin bildirib ki, dekabrın 22-də Saakaşvilinin məhkəmə iclasında onlayn qaydada iştirak etməsi təmin ediləcək. Məlumat üçün bildirək ki, eks prezidentin səhhətindəki mövcud problemlərdən dolayı, onun cəzasının təxirə salınması ilə bağlı vəkillərin müraciəti əsasında növbəti məhkəmə iclası dekabrın 22-də keçiriləcək.

**Politoloq Azər Rəşidoğlu ”Şərq”ə açıqlamasında bildirib ki, Mixeil Saakaşvili Gürcüstan tarixinin ən şərəfli lideridir. Analitik vurğulayıb ki, Saakaşvili ilk prezidentliyi dövründə korrupsiyanın kökünü kəsdi. Bu gün korrupsionerlər Mişadan qisas alır:** ”Məsələ ondadır ki, gənc nəsil Mixeil Saakaşvilini tanımır. Yaşlı nəsil isə hesab edir ki, Mişa siyasətə qayıdarsa, Gürcüstanda ”Ukrayna ssenarisi” təkrarlana bilər. Əslində, Mixeil Saakaşvili dövrünün bitməsi də Moskva-Tbilisi münasibətlərini keçmişdəki kimi ”isti məcraya” qaytara bilmədi. Ukraynada baş verənlər onu deməyə əsas verir ki, Qərb MDB məkanına növbəti dəfə təsir etmək istəyir. Ümumiyyətlə, Qərbin Gürcüstanda həyata keçirdiyi ”Saakaşvili layihəsi” uğurlu oldu. Qısa müddət ərzində ölkədəki korrupsiyaya son qoyan Saakaşvili, işsizlik problemini həll etməklə yanaşı, dövlətin uzun illərdən bəri əhaliyə olan əməkhaqqı borclarını ödəyə bildi. Bir sözlə, Saakaşvili bir örnək idi. Qərblə inteqrasiyanın üstünlüklərini MDB məkanına göstərmək üçün həyata keçirilən bir layihə idi. 2003-cü ilin noyabr ayında minlərlə insan parlament seçkilərinin saxtalaşdırılmasına etiraz olaraq küçələrə çıxdı. O vaxt özünün ”Vahid milli hərəkat” partiyasına başçılıq edən Saakaşvili etiraz dalğasının başında olan üç siyasi liderdən biri oldu. Parlamentin keçmiş spikerləri Zurab Jvaniya və Nino Burcanadze Saakaşvilidən daha təcrübəli və nüfuzlu müxalifətçi siyasətçilər idilər. Bununla belə, küçədəki insanlar ”Mişa” qışqırırdılar. Məhz Saakaşvili həlledici anda saxtalaşdırma nəticəsində seçilmiş yeni qanunverici orqanın sessiyanın başlamasına mane olmaq məqsədilə, parlamentə edilən yürüşə başçılıq etdi. Ancaq digər liderlər onun arxasınca getmədi. Risk böyük idi, parlamenti xüsusi təyinatlı polislər mühafizə edirdi. Tribunadan isə çoxsaylı mühafizəçilərlə əhatə olunan Şevardnadze çıxış edirdi. Amma nəticədə Şevardnadze nümayişçilərin təzyiqi altında parlament binasını tərk etdi, sonra isə istefa verdi. İnqilabın əsas liderinə çevrilən Saakaşvili 2004-cü ilin yanvar ayında Gürcüstan prezidenti seçildi”.

**A.Rəşidoğlu qeyd edib ki, gürcülər sovet keçmişləri üçün darıxdıqları üçün sona qədər Mişanı dəstəkləmədilər:** ”Şevardnadze bu xalqı o qədər rüşvətə alışdırıb ki, insanlar rüşvətsiz yaşaya bilməyəcəklərini düşünürlər. Odur ki, rüşvətsiz, bürokratik əngəlsiz yaşamaq üçün sona qədər mübarizə aparmaq istəmirlər. İstənilən halda Saakaşvili bu xalqın şərəfli tarixidir. Gürcülər onu bu dərəcədə aşağılamaqla tarixə hörmətsizlik edirlər. Mişanın belə hörmətsiz edilməsində Rusiya maraqlıdır. Lakin Qərb də onu satdı. 2008-ci ilin avqustunda Rusiya ilə tək buraxdı, indi də onun ölümünü izləyir”.

**İsmayıl Qocayev**




# "...Qarabağdakı terrorçu rejim gəlirdən məhrum olacaq"

## Xankəndi yolundakı aksiyanın hədəflərindən biri də buna nail olmaqdır

**”Azərbaycan Rusiya sülhməramlılarının yerləşdiyi ərazilərdəki yataqlara nəzarəti bərpa edə bilərsə, separatçı-terrorçu rejim ciddi gəlir itkisinə məruz qalacaq. Bunu ”Şərq”ə açıqlamasında siyasi analitik Asif Nərimanlı deyib.**

O bildirib ki, Xankəndi yolundakı aksiyanın hədəflərindən biri də buna nail olmaqdır: ”Sülhməramlıların müvəqqəti nəzarətindəki ərazilərdə qalan ”Dəmirli” və ”Qızılbulaq” yataqları ”Vallex Group”un 2001-ci ildə yaratdığı ”Base Metals” şirkəti tərəfindən istismar edilir.

Müharibədən əvvəl bu yataqların istismarı nəticəsində separatçıların əldə etdiyi illik gəlir 18,7 milyard dram - ”büdcə”lərinin 1/3 hissəsi olub. Müharibədən sonra isə qızıl və əlvan metalların dünya bazarında qiymətinin artması nəticəsində bu gəlirlər 45 milyard drama çatıb. Bu da ”büdcə”lərinin 2/3 hissəsidir.

Erməni mənbələr ”Qızılbulaq” yatağında qızıl və əlvan metalların tamamilə tükəndiyini yazır. ”Dəmirli”dən çıxarılan metallar ”Qızılbulaq” kombinatında emal edilir.

Həmin yataqlara nəzarət edə bilsək, separatçı-terrorçu rejim əsas gəlirdən məhrum olacaq və rejimin ”sağ qalması”nı daha da çətinləşdirəcək”.

*Qeyd edək ki, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə faydalı qazıntı yataqları, xüsusilə ”Qızılbulaq” qızıl və ”Dəmirli” mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq eko-fəallar və QHT təmsilçiləri 8 gündür Laçın yolunda aksiyanı davam etdirirlər.*

**Aygün Tahir**



# Riçard Murun regiona səfəri məqsədlidir

## İstisna deyil ki, Zəngəzur dəhlizinin ruslarsız həyata keçirilməsi planı var

**Ermənistanın Baş naziri Nikol Paşinyan Böyük Britaniyanın Gizli Kəşfiyyat Xidmətinin (Mİ6) rəhbəri Riçard Muru qəbul edib. Riçard Mur və Paşinyan Cənubi Qafqaz regionunda baş verən prosesləri müzakirə ediblər. Söhbət zamanı regional və beynəlxalq təhlükəsizlik məsələlərinə də toxunulub.**

Bu səfərdən bir neçə gün əvvəl isə Riçard Mur Londonda Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanı qəbul etmişdi. Qeyd edək ki, ingilis kəşfiyyat zabiti Riçard Mur Böyük Britaniyanın Türkiyədəki səfiri olub. Erməni politoloq Hrant Mikaelyan bildirib ki, Ermənistanın əsas təhlükəsizlik problemlərinin həlli heç bir halda Böyük Britaniyanın xarici siyasət maraqları çərçivəsinə daxil deyil. Bu baxımdan Böyük Britaniyanın Mİ6 kəşfiyyat xidmətinin rəhbəri Riçard Murun İrəvana etdiyi səfər müəyyən suallar və şübhələr doğurur. Mikaelyanın sözlərinə görə, son 30 ildə Böyük Britaniya heç vaxt Ermənistana qarşı ciddi dostluq münasibəti nümayiş etdirməyib. Ekspert onu da diqqətə çatdırıb ki, Riçard Mur keçmişdə Türkiyədə səfir olub, ondan əvvəl uzun müddət Türkiyədə Britaniya kəşfiyyatının işinə nəzarət edib və Türkiyə prezidentinin lobbiçisi kimi şöhrət qazanıb: "İndi bir növ "üçbucaq"dan danışmaq olar. Əgər Ermənistan hakimiyyəti Riçard Murla əlaqə saxlayırsa, deməli, üçüncü tərəf də var - Türkiyə. Və buna əslində, İrəvanla Ankara arasında dolayı təmaslar da demək olar. Amma bu təmaslar kimin gündəliyi ətrafında gedir, bunu demək çətindir". O əlavə edib ki, ingilislərin əsl marağı Ermənistanın özü ilə deyil, qonşu İranla bağlıdır.

**Siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Britaniya kəşfiyyatının şefi Riçard Murun İrəvan səfəri iki kontekstdə diqqət çəkir. Ekspertə görə, səfər regional xarakter daşıyır və məxfiliyi ilə seçilir:**

"Bu baxımdan Murun İrəvandan sonra Bakıya da gələcəyi istisna deyil. İyul ayında ABŞ kəşfiyyat rəhbəri Uilyam Börns İrəvana səfər edərkən, onun Bakı və Tbilisidə də olduğu, lakin səfərin təkcə Ermənistan hakimiyyəti tərəfindən açıqlandığına dair məlumatlar var idi. Nikol Paşinyan hakimiyyəti belə məlumatlarla Rusiya qarşısında "qiymətini bahalaşdırmaq" gedişi edə bilər. Börnsün səfərindən üç gün sonra Narışkinin İrəvana uçması da bu fikri gücləndirən amillərdən idi. O səbəbdən Mİ6 şefinin regional səfərinin "ictimailəşdirilməsi" də buna hesablana bilər. Digər səbəb isə Xankəndi yolunda azərbaycanlıların Qarabağ məsələsinə, ümumilikdə regional siyasətin bundan sonrakı mənzərəsinə təsir edə biləcək aksiyasıdır. Aksiyanın qızıl yataqlarına girişlə bağlı olduğu və işğaldan azad olunmuş ərazilərdəki mədənlərdə ingilis şirkətlərinin iştirakı arasında paralellik apardıqda, Murun səfərində bu amilin rol oynadığı ehtimalı yarana bilər. Hərçənd regional proseslər fonunda bu, olduqca kiçik detaldır və Mİ6 şefinin gəlişində əsas hədəf bu ola bilməz. Aksiya və Murun səfəri arasında paralellik apardıqda burada önə çıxan amil Zəngəzur dəhlizidir. Laçın yolunda baş verənlər həm də Bakının "Zəngəzur və Laçın dəhlizi eyni rejimdə işləyəcək" hədəfində praktiki olaraq atılan ilk addım hesab edilə bilər. Zəngəzur dəhlizi ingilislərin də marağında olan Avrasiyanın nəqliyyat şəbəkəsində mühüm marşrutlardan biridir və iqtisadi əhəmiyyəti qədər siyasi əhəmiyyəti də var. Murun səfərində bu məqamın əsas olduğunu demək mümkündür. Lakin hadisələrin inkişafı fonunda o da istisna deyil ki, Zəngəzur dəhlizinin ruslarsız həyata keçirilməsi planı var. Bakı Laçın dəhlizində gömrük postu qurur. Naxçıvana "maneəsiz keçid" üzərində ortaq mövqe tapılır və rusların Qarabağdan çıxmasına ingilislər dəstək verirlər. Təbii ki, bu, hadisələr üzərindən önə çıxan ehtimallardır, lakin bütün hallarda Murun səfəri regionda proseslərin inkişafına ciddi təsir göstərə bilər".

**İsmayıl Qocayev**

# İKT sahəsinə güzəştlər olmalıdır

## Vahid Əhmədov: "Gəncləri xaricə göndəririk oxumağa, orada qalırlar"



**"Azərbaycanda İKT sahəsində mütəxəssis qıtlığı var". Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Fərid Əhmədov bildirib. Nazir müavini xatırladıb ki, Azərbaycanda ÜDM-də İKT sahəsinin payı 1,8 faizdir:**

"Bu, bəzi qonşu ölkələrlə müqayisədə bir neçə dəfə azdır. Biz, Gürcüstana, Qazaxıstana və hətta Ermənistana nəzər salsaq, ÜDM-də İKT sahəsinin payı Azərbaycanla müqayisədə 2-3 dəfə artıqdır". Nazir müavini qeyd edib ki, süni intellekt və kiber təhlükəsizlik sahələri ilə bağlı da mütəxəssislərlə əlaqədar ciddi çətinliklər var: "Bu sahələrdə mütəxəssislərin hazırlanmasına ehtiyac var. Bu təkcə Azərbaycanda deyil, bütün dünyada olan bir problemdir. ABŞ kimi ölkədə də bu sahədə ciddi mütəxəssis çatışmazlığı var. Məqsədimiz bu sahədə mütəxəssislər hazırlamaq, rəqabətqabiliyyətli məhsullar yaratmaqdır".

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında çıxış edən deputat Vahid Əhmədov deyib ki, texnoparklar fəaliyyətə başlayanda 7 illik güzəştlər təklif edilib: "Niyə biz bunu İKT sahəsinə etməmişik ki, hazırda bu vəziyyətlə üzləşmişik? Digər ölkələr bizdən üstündür. Burada qeyd olundu ki, kadr çatışmazlığı var. Bundan başqa, istehsal olunan məhsulların rəqabət qabiliyyəti yoxdur. Biz bu məsələlərdə həddindən artıq gecikmişik".

**Vahid Əhmədovun sözlərinə görə, kadrlar ölkədən gedir və ciddi problemlər ortaya çıxır:** "Doğrudan da bu sahədə mütəxəssis həddindən artıq azdır. Mən də o fikirdəyəm ki, biz rəqabətqabiliyyətli məhsul istehsal edib xaricə ixrac etməliyik. Bunlar ciddi məsələlərdir. Vergi güzəştinin məqsədi ixracyönümlü İKT sahəsini inkişaf etdirməkdir. Biz yeni qanun qəbul etdikdən 5 il sonra ciddi irəliləyişlər əldə edə biləcəyikmi? Yoxsa elə yenə xaricə insan axını olacaq? Təklif edirəm ki, bu sahədə gəncləri xaricə oxumağa göndərək və onlarla belə müqavilə bağlayaq ki, yenidən geri qayıtsınlar. Yoxsa göndəririk oxumağa, sonra yaxşı yaşayış, əməkhaqqının yüksək olması səbəbindən gənclər orada qalırlar. Çalışmaq lazımdır ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Elm və Təhsil Nazirliyinin arasında da bu sahədə müqavilə olsun".

**İsmayıl**

# İran nüvə silahı əldə edərsə...

## Türkiyə də nüvə silahına yiyələnmək barədə ciddi düşünmək məcburiyyətində qalacaq



**İranın dini lideri Əli Xameneyinin müşaviri Kamal Xərrazi Tehranda keçirilən dialoq forumunda deyib ki, ölkəsinin nüvə bombası istehsal etmək imkanı var. Ancaq onu istehsal etmək fikrində deyil.**

Lakin Xərrazinin sonrakı cümləsi ilk fikrini təkzib mahiyyətlidir: "Nüvə texnologiyasına sahib olmaq çəkindiricidir". Yəni İranın nüvə silahı olsa, heç bir dövlət Tehrana təzyiq edə bilməyəcək.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, İranın nüvə silahına yiyələnə biləcəyindən ehtiyat edən əsas ölkələr İsrail, ABŞ və Səudiyyə Ərəbistanıdır. Ekspert qeyd edib ki, Azərbaycanın da İranla münasibətlərində gərginlik hökm sürür:** "İstanbulda ötən həftə bölgədəki vəziyyətlə bağlı iki günlük konfransda iştirak etdim. Müxtəlif mövzuları müzakirə etdikdən sonra konfrans iştirakçılarına belə bir sual verdim: "İran bir gün nüvə silahı əldə etdiyini açıqlayarsa (bu, istisna deyil), Türkiyə və Azərbaycan hansı addımları atacaq? Fikrimcə, İran nüvə silahı əldə edərsə, Türkiyə də nüvə silahına yiyələnmək barədə ciddi düşünmək məcburiyyətində qalacaq. Əgər ətrafda bir qisim dövlət - Hindistan, Pakistan, Rusiya, Çin, İsrail və İran da bu sıraya qatılarsa, Türkiyə və Səudiyyə Ərəbistanı da oxşar çalışmalara başlayacaq. İranın nüvə silahına yiyələnməsi Azərbaycanın maraqlarına ziddir. Aydındır ki, nüvə silahına yiyələnmək kimi planımız yoxdur. Buna baxmayaraq, İran nüvə silahı əldə edərsə, təhlükəsizlik təminatımızın artırılması barədə ciddi düşünməli olacağıq".

**İsmayıl**

# "Humanitar yükləri aparıb Xankəndiyə tökə bilərik"

## Əziz Əlibəyli: "Alternativ olaraq bunu edə bilərik və məncə, etməliyik"



**Azərbaycanlı ekoloqların və qeyri-hökumət təşkilatlarının erməni separatçılarının ekologiya terroruna qarşı Şuşa-Xankəndi yolunda keçirtdiyi etiraz aksiyası Ermənistanla yanaşı, bir neçə başqa ölkənin də yuxusunu ərşə çəkib. Rusiya və İranla yanaşı, Fransa, Litva, Kanada kimi dövlətlərdən səs çıxıb. Bu ölkələrin rəsmi qurumları haqlı tələblərlə keçirilən dinc aksiyanı ermənilərə qarşı "humanitar fəlakət" kimi təqdim ediblər.**

Onlar azərbaycanlıları "Laçın yolunu bağlamaqda" və "Qarabağ ermənilərini təcrid etməkdə" suçlayıblar. Azərbaycan Xarici İşlər Nazirliyi proseslərə qərəzli yanaşan ölkələrin rəsmi qurumlarına sərt etirazını bildirib. XİN-dən vurğulanıb ki, rəsmi Bakı Kanada xarici işlər idarəsinin Laçın yolunun açılması ilə bağlı qərəzli bəyanatını rədd edir. Qeyd olunub ki, Kanada yaxşı olardı ki, Ermənistanı Laçın yolundan qeyri-qanuni hərbi məqsədlər üçün istifadə etməkdən, minaların daşınmasından çəkinməyə çağırsın. Diplomatlarımız Litvanın da cavabını veriblər. Nazirliyin mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib ki, Azərbaycanın uzun illər geniş tərəfdaşlıq münasibətlərinə malik olduğu Litva XİN-in qərəzli və birtərəfli yanaşması narahatlıq doğurur: "Bu bəyanat, eyni zamanda Litva Respublikasının Prezidenti Gitanas Nausedanın cari ilin may ayında Azərbaycana səfəri zamanı aparılmış müxtəlif istiqamətli müzakirələr kontekstində anlaşılmazlıq yaradır. Litva tərəfinə xatırladırıq ki, Azərbaycan ərazisində "Dağlıq Qarabağ" deyilən ərazi vahidi mövcud deyil. Litva artıq "Pribaltika" ölkəsi adlandırılmadığı kimi, Azərbaycanın Qarabağ İqtisadi rayonunun Sovet İttifaqı zamanı formalaşdırılmış keçmiş adlarla adlandırılması qəbuledilməzdir. Blokada ilə bağlı dezinformasiyanın əksinə olaraq, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nəqliyyat vasitələri və erməni təcili yardım maşınları Laçın yolundan sərbəst keçir.

Roma Papası I Fransisk də Laçın dəhlizindəki vəziyyətdən danışıb. Vatikan ofisi məlumat yayıb ki, Papa çətin humanitar şəraitdən "narahat" olduğunu deyib: "Mən qış mövsümündə insanların həyatının daha da pisləşə biləcəyi çətin humanitar şəraitdən narahatam".

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə bildirib ki, erməni lobbisinin pulu çoxdur. Analitik qeyd edib ki, erməni lobbisi maliyyə hesabına, separatçıların Qarabağdan, yəni bizim yataqlardan əldə etdikləri qiymətli metallarla özlərinə xeyli agent əldə ediblər:** "Roma Papasının Qarabağdakı ermənilər üçün "duası" göstərir ki, böyük ölçüdə hansısa maliyyə transferi həyata keçirilib. Məhz belə məqamlara görə ermənilərlə siyasi, psixoloji olaraq onların öz dilində, başa düşdükləri tərzdə danışmaq lazımdır. Ermənilər mövcud vəziyyətə sadəcə 4 gün tab gətirə, dözə bildilər və tamamilə çökdülər. Hazırda mağazaların piştaxtaları tamamilə boşdur. Məsələ ondadır ki, Azərbaycan tərəfi tırlarla humanitar yükləri aparıb Xankəndiyə tökə bilər. Alternativ olaraq bunu edə bilərik və məncə, etməliyik. Bəlkə ondan sonra Roma Papasının ilahi vicdanı digər problemlərin həllinə şərait yaradır".

**Politoloq Elxan Şahinoğlu da deyib ki, Rusiya, ABŞ və Avropa dövlətlərinin bir qismində onsuz da açıq olan, bağlanmayan Laçın yolunun "açılmasıyla" bağlı tələblərin sayı artıb. Onun sözlərinə görə, erməni lobbisi Azərbaycana qarşı dezinformasiya müharibəsində yeni cəbhə açıb:** "Biz haqlıyıq və problemin məmurlarımıza Qarabağdakı yataqlarda monitorinqin aparılmasına maneə ilə bağlı olduğunu bildiririk.Yolda gömrük və sərhəd postunun yaradılması tələbində də haqlıyıq. Ancaq haqlı olduğumuzu müxtəlif ölkələrin rəsmi və ekspert dairələrinə nə dərəcədə izah edə bilirik? Azərbaycanın xarici ölkələrdəki səfirlərindən hər hansı birinin bu mövzuda məşhur nəşrlərdən birinə müsahibə verdiyini və ya brifinq keçirdiyini eşidən olubmu?".

**İsmayıl Qocayev**

# Şərtlər dəyişib

## "3+3 formatı" yenidən gündəmə gəlir

**Türkiyə-Azərbaycan-Gürcüstan regionda yeni alternativ platforma yaratmaq üzərində işləyə bilərlər. Bölgənin "3+3 formatı" ideyası yenidən gündəmə gəlir".**

Bunu "Şərq"ə açıqlamasında hərbi-siyasi ekspert Həşim Səhrablı Türkiyə-Azərbaycan-Gürcüstan müdafiə nazirlərinin gözlənilən 9-cu üçtərəfli görüşündən danışarkən deyib. O qeyd edib ki, "3+3 platforması" Cənubi Qafqaz ölkələri və bu regiona həmsərhəd olan Türkiyə, İran və Rusiya arasında kommunikasiyaların və iqtisadi-ticarət əlaqələrinin qarşılıqlı fayda əsasında inkişaf etdirilməsini nəzərdə tuturdu: "Ötən il Gürcüstan altılıq platformasına etirazını bildirmişdi. Onun torpaqlarını ilhaq edən Rusiya ilə birgə platformadan effektiv nəticələr gözləmirdi. İranda da daxili sabitlik bərpa edilməyib. İran Qərb dövlətləri, İsrail, ABŞ kimi ölkələrlə ciddi qarşıdurma yaşayır. Bu da güc və nüfuz itkisinə səbəb olur. Rusiya Ukraynadakı müharibə fonunda bataqlığa düşüb, çıxa bilmir. O da güc və nüfuz itirir. ABŞ, Yaponiya, Avstraliya, Cənubi Koreya kimi ölkələrin sanksiyalara qoşulması ilə Rusiya ciddi iqtisadi problemlər yaşayır".



"Türkiyə sürətlə inkişaf edir, dünyanın aparıcı ölkələrindən birinə çevrilməkdədir"

**Ekspertin qənaətincə, Türkiyə isə Rusiya və İrana nisbətən daha uğurlu xarici siyasət yürüdür:** "Türkiyə sürətlə inkişaf edir, dünyanın aparıcı ölkələrindən birinə çevrilməkdədir. Gürcüstan gördü ki, Azərbaycan Türkiyə ilə ittifaq kontekstində öz ərazilərinin 30 illik işğalına son qoydu. Bölgədə yeni status-kvo müəyyənləşdirdi. Rusiya Gürcüstanın torpaqlarını ilhaq edib, İran isə Gürcüstanda ekstremist dini qrupları maliyyələşdirir. Belə faktlar rəsmi Tbilisinin rəsmi Moskva və Tehranı özünə təhlükə olaraq gördüyünü deməyə əsas verir. Faktiki ittifaq münasibətlərinin formalaşmasını gözləmək sadəlövhlük olardı. İstənilən halda üç ölkə bir-birilərinin təhlükəsizliyinə təminat vermək, hərbi əlaqələri genişləndirmək və bölgədəki vəziyyəti düzgün dəyərləndirmək baxımından razılığa gələcəklər".

*Qeyd edək ki, Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyəyə səfər edəcək. Səfər dekabrın 21-də baş tutacaq. Məlumata görə, nazir Türkiyə-Azərbaycan-Gürcüstan müdafiə nazirlərinin 9-cu üçtərəfli görüşündə iştirak edəcək.*

**Aygün Tahir**

# Taksi əlverişli nəqliyyat növü deyil

## Avtobusdan istifadə edənlərin sayı gün keçdikcə daha da artacaq



**İlin əvvəlindən bu günə qədər avtobus istifadəçilərinin sayı kəskin artıb. Dövlət Statistika Komitəsinin məlumatında isə taksidən istifadə edənlərin sayında kəskin azalmaların olduğu vurğulanıb.**

Qeyd edək ki, yanvar-noyabr aylarında Azərbaycanda avtobuslarla 1 196 123,3 min sərnişin daşınıb ki, bu da illik müqayisədə 29,2 faiz çoxdur.

Hesabat dövründə minik taksilərindən 76 029 min nəfər istifadə edib ki, bu da illik müqayisədə 5,5 faiz azdır.

Nəqliyyat ekspertləri deyirlər ki, avtobus istifadəçilərinin sayının artması, taksidən istifadə edənlərin sayının isə azalması səbəbsiz deyil. Pandemiyadan sonra həm bölgələrə avtobus marşrutları bərpa olunub, həm də işğaldan azad olunan rayonlara yeni marşrutlar açılıb. Bu da statistikaya təsir edir.

**Nəqliyyat eksperti Eldəniz Cəfərovun sözlərinə görə, pandemiyadan sonra taksidən istifadə etmək geniş vüsət aldı. Koronavirus pandemiyasının ilk vaxtlarında avtobuslara qoyulan qadağa, uzun müddət, həftəsonu ictimai nəqliyyatın olmaması taksilərdən istifadəni artırdı:** "Çünki bu nəqliyyat növündə qiymətlər ucuz, virusdan qorunmaq daha etibarlı və rahatdır. Bu amillər taksiyə marağın olmasına təsir göstərir. Amma təkcə Bakıda ictimai nəqliyyat gün ərzində 2 milyon civarında sərnişin daşıyır. Taksidə bu qədər sərnişinin hərəkəti mümkün deyil. Taksiyə olan maraqla ictimai nəqliyyata olan marağı eyniləşdirə bilmərik. Çünki taksidən istifadə çox olsa da, tutumuna görə ictimai nəqliyyatı keçə bilməz".

Ekspertin sözlərinə görə, statistik rəqəmlərin artmasının bir səbəbi də bölgələrə artan avtobus səfərləridir. Bu rəqəm gün keçdikcə daha da artacaq: "Hazırda Gəncə və Sumqayıtı istisna etməklə, bölgələrə səyahət üçün dəmiryollarının işləməməsi, əlbəttə ki, avtobuslara tələbatı daha da artırıb. Hələ buraya işğaldan azad olunan bölgələrimizə təşkil olunan avtobus səfərlərinin sayını da əlavə etsək, bu rəqəm gözlənilən idi. Gələn ilin statistikası bundan da artıq olacaq. Çünki bu, artan templə davam edir".

E.Cəfərovun fikrincə, taksidən istifadənin azalması da gözlənilən idi: "Taksidən istifadənin azalması ümumi Azərbaycan statistikasına görə uyğun ola bilər. Yuxarıda sadaladığım səbəblərlə yanaşı, qeyd etmək lazımdır ki, vətəndaşlarımız fərdi avtomobillərdən də daha çox istifadə edirlər".

**Şəymən**

# Güclər fərqlidir

## Afina Ankara ilə savaşa girməyəcək

**Yunanıstan baş nazirinin diplomatik ofisinin direktoru Anna-Mariya Bur ilə Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın arasında Brüsseldə gizli görüş keçirilib. Bu barədə Yunanıstanın "News Break" nəşri məlumat yayıb. Nəşrin yazdığına görə, görüş Almaniya kansleri Olaf Şoltsun xarici və təhlükəsizlik siyasəti üzrə müşaviri Yens Plötnerin iştirakı ilə baş tutub:**

"Danışıqlar Almaniyanın Avropa İttifaqındakı (Aİ) Nümayəndəliyinin ofisində heç bir ilkin şərt qoyulmadan keçirilib ki, tərəflər qarşılıqlı münasibətləri bərpa etmək üçün niyyətlərini müzakirə edə bilsin. Yens Plötneri və Almaniyanın Afinadakı keçmiş səfiri də görüşdə iştirak edib". Qeyd edək ki, NATO çərçivəsində müttəfiq olan Türkiyə və Yunanıstan mübahisəli ərazilərə görə dəfələrlə silahlı münaqişənin astanasında olublar. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Liviyanın yalnız bir hissəsinə nəzarət edən Milli Razılıq Hökumətinin rəhbəri Fayez Sərracın imzaladığı hərbi sahədə əməkdaşlıq və dəniz zonaları üzrə qarşılıqlı anlaşma diplomatik mübahisələrə səbəb olub. Türkiyə memorandumu nəzərə alaraq dəniz zonalarının xəritəsini dərc edib. Bunun nəticəsində Yunanıstan sularının əhəmiyyətli bir hissəsi Türkiyəyə "keçib". Yunanıstan Şərqi Aralıq dənizi regionunda Türkiyənin tədqiqatlarına etiraz edib. Bu, rəsmi Afina ilə Ankara arasında münasibətlərin kəskinləşməsinə səbəb olub. Ölkələr arasında gərginliyin yeni mərhələsi 23 avqust 2022-ci ildə baş verib. Yunanıstan türk F-16-larını hədəfə almaq üçün Rusiya istehsalı olan S-300 hava hücumundan müdafiə sistemlərini bölgəyə yerləşdirib. Ərdoğan bir neçə dəfə bildirib ki, Yunanıstan təxribatlara davam edərsə, "türklər gecə qəfildən gələ bilər".



*Yunanıstanla Türkiyə arasında hərbi qarşıdurma gözlənilmir*

**"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi"nin rəhbəri Samir Hümbətov "Şərq"ə deyib ki, son dövrlər Yunanıstan və Türkiyə arasında gərginlik artıb. Analitik hesab edir ki, tərəflər arasında görüşlər, təmaslar konkret hər hansı məsələyə təsir göstərə bilər. Amma iki ölkə arasındakı ümumi gərginliyə ciddi təsir göstərəcəyi inandırıcı deyil:** "Məsələ ondadır ki, Yunanıstanı Türkiyə əleyhinə çıxmağa, Ankaranı hədələməyə məcbur edən, təhrik edən qüvvələr var. Afina çox yaxşı başa düşür ki, Türkiyə qarşısında daxili imkanları çox zəifdir. Yunanıstan ABŞ-nin hərbi bazaları tərəfindən tamamilə əhatə olunmuş bir ölkəyə çevrilib. Amerika Yunanıstanda son dövrlərdə 9 hərbi baza qurub. Bu, kifayət qədər ciddi məqamdır, çünki hərbi bazaların əksəriyyəti Türkiyə ətrafında yerləşdirilib. Yunanlar İkinci Dünya müharibəsindən sonra imzalanmış sənədlərə əsasən, öz nəzarətinə götürdükləri hərbsizləşdirilmiş adalara da artıq hərbi qüvvələr cəmləməyə başlayıblar. Bunlar iki ölkənin əlaqələrinin normallaşma mərhələsinə girməsinə və sağlam əlaqələrin formalaşmasına imkan vermir. Əlbəttə, onu da iddia etmirik ki, Türkiyə və Yunanıstan hərbi qarşıdurmaya gedəcək və bir-biri ilə savaşacaqlar. Bu da inandırıcı deyil. Hər iki ölkə NATO çərçivəsində müttəfiqdir və Afina hökuməti Türkiyənin hərbi gücünün fərqindədir. Əgər hansısa qarşıdurma olarsa, Yunanıstanı təhrik edənlər Türkiyə ilə birbaşa savaşa girməyəcək. Həmin qüvvələrin marağı Türkiyə ilə Yunanıstanı üz-üzə qoymaq, münasibətləri gərgin saxlamaqdır. Çünki Afinaya dəstək verənlərin bölgədə, Aralıq dənizində öz maraqları var".

**İsmayıl Qocayev**

**Dekabrın 12-dən başlayaraq Azərbaycanın QHT nümayəndələrinin və ekofəalların Şuşa-Xankəndi yolunda təbii sərvətlərimizin qanunsuz istismarına qarşı keçirdiyi aksiya erməni lobbisini təşvişə salıb. Hər zaman olduğu kimi Amerika Ermənilər Milli Komitəsinin (ANCA) idarəçiliyi ilə dünya ermənilər, xüsusən ABŞ-dəki erməni lobbisi anti-Azərbaycan fəaliyyətini gücləndiriblər.**



# Erməni lobbisi Azərbaycana qarşı böhtan atır

## Qarabağda yaşayan ermənilər üçün heç bir humanitar böhran yaratmır

Onlar etiraz aksiyasını "Qarabağ ermənilərinin humanitar yardım blokadası və enerjinin kəsilməsi" adı ilə dünya gündəminə gətirməyə çalışırlar. Müxtəlif ölkələrdə keçirdikləri aksiyalarda, mediada Qarabağdakı erməniləri mitinq çağırışı ilə çıxış edir və azərbaycanıların bu aksiyasını "ikinci erməni soyqırımı" kimi qələmə verməyə çalışırlar. Çıxışlarda ABŞ-dən qondarma rejimə humanitar yardım göndərilməsi və Azərbaycana sanksiya tətbiq edilməsi vurğulanır.

**Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə "Şərq"ə açıqlamasında bildirib ki, lobbi dünya ermənilərini məlumatlandırmaq üçün "Twitter"də "Artsax böhranı" aksiyasına başlayıb. Ekspertin sözlərinə görə, məsələ ilə bağlı ABŞ Konqresinin ermənipərəst üzvləri Ağ Ev rəhbərliyinə təzyiqi artırıblar:** "Konqresin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin Avropa məsələlərini əhatə edən paneli dekabrın 14-də Qafqaz üzrə dinləmələr keçirib. Dinləmələrdə konqresmen Brayan Fitzpatrik, Cim Kosta, Bred Şnayder və Syuzan Uayld Azərbaycana qarşı sərt çıxışlar edərək ABŞ Prezidenti Co Baydenə çağırışlarını səsləndiriblər. Onlar bu məsələdə Amerikanın təcili tədbirlər görməsinə ehtiyacın olduğunu qeyd ediblər. Dinləmədən başqa, Senatın Xarici Əlaqələr Komitəsinin sədri Bob Menendez, Konqresin Erməni Problemləri üzrə Erməni Qrupunun rəhbərliyi və Nümayəndələr Palatasının Kəşfiyyat Komitəsinin sədri Adam Şiff və Rep Dina Titus, ayrı-ayrılıqda anti-Azərbaycan bəyanatları veriblər. Ermənipərəst konqresmenlər "Tvitter" hesablarında Azərbaycanın əleyhinə paylaşımlar ediblər. Onların məqsədi Qarabağdakı qondarma rejimə Ağ Evin təcili humanitar yardım paketinin ayrılmasıdır. Hətta bununla bağlı erməni qrupunun üzvü olan 30-a yaxın konqresmen dekabrın 16-da Co Baydenə məktub ünvanlayıblar".

**"Onların məqsədi Qarabağdakı qondarma rejimə Ağ Evin təcili humanitar yardım paketinin ayrılmasıdır"**

**F.Hüseynzadə bəyan edib ki, ekoaksiya Qarabağda yaşayan ermənilər üçün heç bir humanitar böhran yaratmır:** "Ümumiyyətlə, aksiya başlayandan humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə olmayıb. Bu müddət ərzində Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus avtomobillər aksiya keçirilən məkandan maneəsiz keçiblər. Azərbaycan fəalları sülh aksiyası keçirir. Sülh quruculuğunda Azərbaycanın vətəndaş cəmiyyəti mövqeyi nümayiş etdirir. Bu, Qarabağda yaşayan ermənilər üçün heç bir təhdid yaratmır. Aksiyanın Qarabağ ermənilərinin yaşadığı ərazilərin qazla təchizatı məsələsinə də heç bir aidiyyəti yoxdur. Çünki həmin ərazilərdə qaz təchizatı Ermənistan tərəfindən həyata keçirilir. Göründüyü kimi, erməni lobbisi və onları dəstəkləyən konqresmenlər yenə də Azərbaycana qarşı böhtan atırlar. Məqsədli şəkildə Qarabağ ermənilərinin problemlərini Azərbaycanın üzərinə atmağa çalışırlar. Azərbaycan xalqı, QHT-lər, ekofəallar könüllü şəkildə "Eko və mina terroruna son" deyərək etirazlarını davam etdirirlər. Ermənistanın təcavüzkar siyasəti, müharibə cinayətləri haqqında QHT-ların fəaliyyətinin davamı bu gün Şuşa-Xankəndi yolunda keçirilən aksiyada özünü göstərir. Bu, Azərbaycan xalqı üçün ümummilli məsələyə çevrilib, xalqımız birlik nümayiş etdirir. Dünya azərbaycanlıları Ermənistanın bu cinayətlərinin beynəlxalq ictimaiyyətin diqqətinin cəlb edilməsində fəallıq göstərməlidir. Xaricdəki soydaşlarımız da Şuşa-Xankəndi yolunda keçirilən aksiyaya dəstək olaraq yaşadıqları ölkələrin KİV-ində, sosial şəbəkələrdə çıxışlar etməlidirlər. Erməni lobbisinin bu aksiya ilə bağlı yalanlarının ifşa olunması istiqamətində koordinasiyalı şəkildə xaricdə iş görülməlidir. Milli maraqların qorunması xaricdəki soydaşlarımız üçün Vətən məsuliyyətidir".

**İsmayıl Qocayev**



# Planlar pozuldu...

## Artıq ermənilər reallıqla barışmaqdan başqa yollarının olmadığını görürlər

**"Mənə elə gəlir ki, bu aksiyalar bizim istədiyimiz effekti artıq verməyə başlayıb".**

*Bunu "Şərq"ə açıqlamasında "Az-Vision.az" ın baş redaktoru, tanınmış jurnalist Vüsal Məmmədov Şuşa-Xankəndi yolunda Azərbaycanın qeyri-hökumət təşkilatları təmsilçiləri, ictimaiyyət nümayəndələri, ekofəallar və ekspertlərin iştirak etdikləri mülki aksiyadan danışarkən deyib.* Həmkarımız qeyd edib ki, son məqsədlər var və ona çatılacağına şübhə ola bilməz: "Hətta bəzi nəticələr ortadadır. Artıq Ermənistan, Qarabağda yaşayan ermənilər və Rusiyanın sülhməramlı kontingenti də Azərbaycanın razılığı olmadan hansısa addımların atılmasının mümkünsüz olduğunu gördü. Yəni rəsmi Bakının əlində metodlar və prosesə təsir imkanı çoxdur.

Dövlət kənarda dayansa belə, vətəndaş cəmiyyətinin meydana daxil olması ilə Azərbaycan hadisələrə çox güclü təsir göstərmək iqtidarında olduğunu sübut etdi. Digər tərəfdən Ermənistan 8 gündür özünə əl qatıb. Amma heç nəyə nail ola bilmir.

Yəni onlar aciz vəziyyətdədirlər və çırpınırlar. Kənardan buna baxdıqda isə gülünc bir mənzərə yaranır. Eynilə 44 günlük Vətən müharibəsindəki vəziyyətdir sanki. Mən buna zarafatla "dabanyalayan 2" deyirəm. Onlar bizimlə danışıb razılığa gəlməkdənsə, gah rus sülhməramlılarına, gah Hollandiya parlamentinə, gah da Fransaya müraciət edirlər. Lakin bunların heç birinin xeyri yoxdur. Rəsmi İrəvan elə bir reallıqla üzbəüz qoyulub ki, burada hər şeyi həll edən güc Azərbaycandır. Yəni onlar həll yolu axtarırlarsa, bizimlə danışmalıdırlar".

**Baş yazar qeyd edib ki, artıq ermənilər reallıqla barışmaqdan başqa yollarının olmadığını görürlər:** "Bu isə indidən əldə edilən nəticədir. Qarabağda məskunlaşan erməni əhalisi də Azərbaycanın iradəsi olmadan torpaqlarımızda istədiyi kimi davrana bilməyəcəklərini yaxşı anlayır.

Burada söhbət mülki insanlardan getmir. Söhbət onların adından danışan Vardanyan-Volkov işbirliyindən gedir. Bu xunta anlamalıdır ki, Azərbaycanı saymadan planlarını həyata keçirə bilməyəcəklər. Necə ki, artıq Qarabağın sərvətlərini kənarda sata bilmirlər.

Məncə, bunlar artıq ciddi siyasi nəticədir. Ekoloji nəticə isə gec-tez olacaq. Aksiya iştirakçılarının da dediyi kimi, nəticə əldə olmasa, heç kəs geri çəkilməyəcək".

**Nihat Müzəffər**

# Sabitlik Volkov və onun sahibi Vardanyana sərf edir

## Ekoloqlarımız torpaqlarımıza daxil olsalar təhlükəli heç nə baş verməyəcək

**"Ermənistan narazılığını ifadə edə bilər. Amma sülhməramlılardan imtina etmək istəmirlər". Bunu "Şərq"ə açıqlamasında "Ayna-Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı Ermənistanın Rusiya sülhməramlılarının fəaliyyətindən narazı qalmasına münasibət bildirərkən deyib.**

Baş yazarın sözlərinə görə, ermənilər orada rusların əvəzinə fransızlar, yaxud bir başqalarını görmək istəyirlər: "Torpaq bizimdir, kimi istəsək, orada saxlaya bilərik. Ermənilər baba və nəvələrinin də Qarabağda olmağını arzulayırlar. Amma icazə vermirik. Hazırda Azərbaycan da rus sülhməramlıların fəaliyyətindən narazıdır".

**Politoloq Tofiq Abbasov isə vurğulayıb ki, Ermənistanda spiker Alen Simonyanın özü olmaq şərtilə qərbpərəst qüvvələrin fəallaşması müşahidə olunur:** "Nensi Pelosinin səfəri, dövlət departamentinin reaksiyaları, Fransa Prezidenti Makronun "vay-şivən" salması bu proseslərin tərkib hissəsidir. Bir qayda olaraq, qərbpərəst qüvvələr bildirir ki, guya, Rusiya sülhməramlıları Azərbaycanın xeyrinə işləyirlər. Guya, erməni xalqının və Qarabağda yaşayan ermənilərin haqlarını qorumurlar. Bunlar əlbəttə ki, yalandır. Heç bir həqiqətə, məntiqə sığmır.

Ermənistan bölgəyə ya Amerika, ya Fransa, ya da hər ikisinin birlikdə sülhməramlı kontingentinin gəlməsini istəyir. Amma orada qətiyyən sülhməramlı qüvvəyə lüzum yoxdur.

Çünki proseslər Azərbaycanın nəzarətindədir. Bilirik ki, son vaxtlar "Sərsəng" su anbarının fəaliyyəti kimi məsələlərlə bağlı artıq ermənilərlə təmas olub. Bu, vasitəçilər olmadan belə insanların bir-birilə ünsiyyət yaratmağa çalışdığından xəbər verir. Məlum ünsiyyət də dialoqun bir formasıdır. Digər tərəfdən isə xalq diplomatiyasının zəfəridir. Bunu görən moderatorlar, guya, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsində özlərinin yerlərini möhkəmləndirməyə səy göstərirlər.

Amma əslində məqsəd öz maraqlarını təmin etməkdir. İndi Rusiyanın hərbi (sülhməramlı) kontingentinin fəaliyyətinin, sadəcə, pozuculuqdan ibarət olduğunu görürük. Yolu bağlayıblar, süni gərginlik yaradırlar.

Bu, Volkov və onun sahibi Ruben Vardanyana sərf edir. Artıq ikisinin iş birliyi ortadadır. "Qara" biznesə şərait yaradan məhz rusların hərbi kontingentidir. Orada xeyirləri var, maddi maraq güdürlər. Bu səbəbdən sülh prosesinin birdəfəlik həllini və ermənilərlə aramızda təmasın olmamasını istəyirlər".



*"Əksinə, təmas olacaq. Bəlkə də, biri-biriləri ilə salamlaşacaq, hətta söhbət də edəcəklər"*

**T.Abbasov qeyd edib ki, Volkov və Vardanyanın xaricdə gərginliyin durmadan artdığını göstərmək məqsədləri var:**

"Amma bu proseslərin davamı yoxdur. Ruslar məlum qüvvəni sülhməramlı kimi təlqin edirlər. Lakin əslində bu, hərbi kontingentdir.

Onların mandatı yoxdur. 2025-ci ilə qədər Qarabağı tərk edə bilərlər. Yol açılsa və Azərbaycanın ekofəalları, jurnalistləri həmin ərazilərə daxil olsalar, təhlükəli heç nə baş verməyəcək. Əksinə, təmas olacaq. Bəlkə də bir-biriləri ilə salamlaşacaq, hətta söhbət də edəcəklər. Sadəcə kənardan gətirilmiş işbazlar Ruben Vardanyanın "kölgə" biznesini genişləndirirlər.

Qazanc əldə etmək üçün Azərbaycanın dəmir, qızıl, mis, filizini oradan çıxarırlar. Bu xidmətlərinə nə ermənilər, nə də azərbaycanlıların ehtiyacı var. Nəhayət onun əsas qayəsi Qarabağda guya səliqə-səhman yaratmaq, Paşinyanın yerinə keçməkdir. R.Vardanyan istər Ermənistan, istərsə də Azərbaycan üçün yad ünsürdür".

*Qeyd edək ki, Ermənistan Rusiya sülhməramlılarının fəaliyyətindən narazıdır. Bunu Ermənistan Parlamentinin spikeri Alen Simonyan Şuşa-Xankəndi yolundakı aksiya ilə əlaqədar yaranan vəziyyətlə bağlı danışarkən deyib. Həmçinin gələcəkdə Rusiyanın sülhməramlı missiyasına alternativ olaraq, Qarabağın təhlükəsizliyinin təmin edilməsi üçün başqa variantları nəzərdən keçirməyin lazım gələcəyini bildirib.*

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# Vətənpərvər gənc ölkənin inkişafına töhfəsini mütləq verəcək

## Əhəd Məmmədli: "Həmrəylik düşərgələri gənclərdə vətənpərvərlik hissini gücləndirir, onların şəxsi inkişafına kömək edir"




**"Şuşa İli" çərçivəsində həyata keçirilən tədbirlər sırasında gənclərin iştirakı ilə keçirilən düşərgələr xüsusi əhəmiyyətə malikdir. Yay fəsli müddətində ölkəmizin müxtəlif bölgələrində bir neçə belə düşərgə təşkil olundu, gənclər bir araya gələrək ideyalarını, fikirlərini paylaşdılar, Qarabağın dirçəlişində iştirak etmək istəklərini bildirdilər. Gənclərin Qarabağın dirçəlişində fəal iştirakının qarşıya qoyulmuş məqsədə nail olunmasında əhəmiyyətliliyi nəzərə alınaraq bu düşərgələrin təşkili yenə davam edir.**

Hazırda Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, "Böyük Qayıdış" Gənclər Təşkilatı və "Gənc SİMA" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində Şamaxı rayonunda "Birlik" Qarabağ gənclərinin həmrəylik düşərgəsinə start verilib. Düşərgənin ilk günündə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Şamaxı rayonunda ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər. Daha sonra Şamaxı rayon Şəhidlər xiyabanını ziyarət edərək torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini yad ediblər. Düşərgənin açılış tədbiri 44 günlük Vətən müharibəsində Şuşaya qədər döyüş yolu keçmiş, qəhrəman qazilərlə görüşlə başlayıb. Dövlət Vergi Xidmətinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində baş tutan tədbirdə Dövlət Himni səsləndirilib, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə açıq elan edən "Böyük Qayıdış" Gənclər Təşkilatının icraçı direktoru Nail Şükürov düşərgə iştirakçılarını salamlayaraq, gənclərə düşərgə müddətində uğurlar arzulayıb. O, öz çıxışında Müzəffər Ali Baş Komandan İlham Əliyevin güclü iradəsi və qətiyyəti, xalqımızın birliyi və yenilməz Ordumuzun rəşadəti hesabına Vətən müharibəsində qazanılan şanlı Zəfərdə gənclərin müstəsna rolundan danışaraq bildirib ki, işğaldan azad olunmuş torpaqların dirçəldilməsində və "Böyük Qayıdış" prosesində də gənclərdən gözləntilər böyükdür. Daha sonra təşkilatın idarə heyətinin üzvü, Aprel döyüşləri qazisi Əhliyət Mehdiyevin moderatorluğu ilə davam edən görüşdə Vətən müharibəsi qaziləri keçdikləri döyüş yollarından, müharibə dövründə ordumuzun döyüş əhval-ruhiyyəsindən, hərbi-psixoloji hazırlığından, işğaldan azad olunmuş ərazilərə ilk ayaq basdıqlarında yaşadıqları hisslərdən, xalq və ordu birliyindən danışıb, onları maraqlandıran sualları cavablandırıblar. Tədbir mədəniyyətimizin beşiyi olan Qarabağın istedadlı gənclərinin təqdimatında biri-birindən maraqlı musiqi və şeir ifaları ilə yekunlaşıb. Artıq ikinci ildir ki, təşkil olunan düşərgənin keçirilməsində məqsəd Vətən müharibəsində rəşadətli Ordumuzun parlaq qələbəsi ilə reallaşan "Böyük Qayıdış"a və Qarabağda dirçəlişə töhfə vermək istəyən Qarabağ gəncləri arasında şəbəkələşməni təmin etmək, bununla bağlı gənclərin ideyalarını toplamaq və onların təşəbbüskarlığını artırmaqdır. Həmçinin gənclərdə vətənpərvərlik və həmrəylik hissini gücləndirmək, müxtəlif təlim və görüşlər vasitəsilə şəxsi inkişaflarına dəstək olmaq, asudə vaxtlarını səmərəli təşkil etməkdir. Bu il "Şuşa birliyimizin rəmzidir!" devizi altında həyata keçirilən və 5 gün davam edəcək düşərgədə 120 nəfər Qarabağ gənci "Zəfər", "Dəmir Yumruq", "Bayraqdar", "Xarıbülbül", "Qayıdış", "Xudafərin" və "Murov" adlı komandalar daxilində iştirak edəcəklər.

**AĞ Partiya sədrinin müavini Əhəd Məmmədli "Şərq"ə açıqlamasında ictimai təşkilatların təşkilatçılığı ilə keçirilən həmrəylik düşərgələrinin gənclərin potensiallarının üzə çıxmasına dəstək olduğunu bildirdi:**

- Belə düşərgələr bir neçə dəfə təşkil edilib. Gənclərin iştirakı ilə Şuşada, Şamaxıda silsilə görüşlər, tədbirlər keçirilib. Düşərgələrə ziyalılar, yazıçı və şairlər, millət vəkilləri də dəvət edilirdi, onların iştirakı ilə diskussiyalar aparılırdı, gənclər də öz fikirlərini bildirir, təşəbbüslə çıxış edirdilər. Təbii ki, ölkənin inkişafında, o cümlədən Qarabağın dirçəldilməsində gənclərin rolu danılmazdır. Gənclər əhalinin böyük hissəsini təşkil etdiyindən zəruri, həyati vacib işlərin icrası, qarşıya qoyulan məqsədlərə nail olunmasında məhz onların iştirakı vacibdir. Bu səpkili düşərgələrə ali məktəb tələbələri, müəyyən işlərdə çalışan, savadlı gənclər cəlb edilir. Hesab edirəm ki, belə düşərgələr daha geniş arealı əhatə etməlidir. Burada təkcə seçilmiş, mütləq mənada tələbə adı qazanmış və ya ali təhsil alan, müəyyən peşəyə, iş yerinə sahib gənclərə deyil, ilk növbədə şəhid və qazi ailələrinin övladı olan gənclərə üstünlük verilməli, həmçinin ali təhsili olmayanların iştirakına da şərait yaradılmalıdır. Yalnız nümunəvi gənclik seçilməməli, düşərgələr ümumi şəkildə Azərbaycan gəncliyini əhatə etməlidir. Belədə düşərgələrin tərbiyəvi əhəmiyyəti daha böyük olar. Deyilə bilər ki, düşərgələrin məqsədi həm də gənclərin ideyalarını toplamaqdır, ona görə ali təhsilli, ixtisaslı gənclərə üstünlük verilir. Lakin unutmamalıyıq ki, işğal altındakı torpaqlarımızı həm də ali məktəbə daxil olmadan, XI sinfi bitirdikdən sonra həqiqi hərbi xidmətə cəlb olunmuş oğullarımız azad etdilər. Vətən sevgisi, vətənpərvərlik hissləri ali və ya orta savadla ölçülmür. Ali savadı olmayan, konkret hansısa ixtisasa yiyələnməmiş elə gənclərimiz var ki, Milli Qəhrəman adını aldılar. İdeyalara gəlincə, hər bir gənc ideya ilə çıxış edə bilər. Gənclər gələcəyə daha iti nəzərlə baxır. Onların dirçəlişlə bağlı çox gözəl, kreativ ideyaları ola bilər. Bunları nəzərə alaraq həmrəylik düşərgələrinə ümumən ölkə gəncləri cəlb edilməlidir.

**Ə.Məmmədli qeyd etdi ki, gənclərin irəli sürdüyü ideyaların vahid bir mərkəzdə toplanması da əsasdır:**

- Düşərgə boyunca səslənən fikirlərə, ideyalara diqqətli yanaşılmalı, bir mərkəzdə toplanmalı və reallaşmasına zəmin yaradılmalıdır. Gənclər irəli sürdükləri ideyaların bəyənildiyini və icra olunduğunu gördükdə, daha da həvəslənəcək və bu, onları yeni düşüncələrə doğru istiqamətləndirəcək. Biz Azərbaycan gəncliyinin nəyə qadir olduğunu istər Birinci Qarabağ müharibəsində, istərsə də 44 günlük Vətən müharibəsində gördük. Azərbaycan gəncliyi vətənpərvər, milli köklərə bağlı, mübariz, qorxmaz olmaqla yanaşı, həm də açıq fikirli və kreativdir. Gənclərin bu potensialından maksimum istifadə etmək lazımdır.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Qanunsuz qaz cihazları təhlükə mənbəyidir

## Mütləq şəkildə mənzillərdə və obyektlərdə qaz detektoru olmalıdır



**Dəm qazından daha üç nəfər zəhərlənib. Gəncədə 2005-ci il təvəllüdlü Gülçin Ramazanova və həmyaşıdı İnarə Qasımlı zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdiriliblər.**

Onların vəziyyəti kafi qiymətləndirilir. Məlumata görə, yeniyetmə qızlar yaşadıqları evdə dəm qazından zəhərləniblər. Digər zəhərlənmə faktı isə Goranboyda qeydə alınıb. 2004-cü il təvəllüdlü Xədicə Mustafayeva zəhərlənmə diaqnozu ilə xəstəxanaya yerləşdirilib, qadının vəziyyətinin kafi olduğu bildirilir. 18 yaşlı Xədicə də yaşadığı evdə dəm qazından zəhərlənib.

**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri Elçin Bayramlının sözlərinə görə, son illərdə aparılan maarifləndirmə və təhlükəsizlik qaydalarına riayət edilməsi nəticəsində illik statistikada azalma olsa da, belə hallar aradan qalxmır. Ona görə də insanlar diqqətli olmalı, evdə qaz cihazları və borularının normal vəziyyətdə olmasına və hava çıxışlarının təmiz olmasına fikir verməlidirlər:** "Bəzi hallarda suqızdırıcı qaz cihazlarının qapalı hamamda qoyulması və hamam otağının hava çıxışları olmadığından karbon-monoksiddən boğulma baş verir. Bu qazın iy-qoxusu olmadığından hiss etmək mümkün olmur. Evlərdə quraşdırılmış qaz avadanlıqlarından düzgün istifadə olunmadığı müddətcə bu vəziyyət davam edəcək. Üstəlik, bu avadanlıqların quraşdırılması mütəxəssislər tərəfindən deyil, həvəskar ustalar və ya ev sahibi tərəfindən həyata keçirilirsə, təhlükə ikiqat artır.

Qazsızmalar da böyük faciələrə yol aça bilir. Mütləq şəkildə mənzillərdə və obyektlərdə qaz detektoru olmalıdır. Hazırda bu cihazlar ucuz qiymətə hər yerdə satılır. Qaz təchizatçısının üzərinə düşən öhdəlikləri də qeyd etməliyik. İndiyədək qaz işçilərinin mənzilə daxil olması qadağan idi, onlar yalnız sayğaca qədər baxa bilərdilər. Bu ildən etibarən qaz istismar idarələri əməkdaşlarına mənzillərdə qaz təhlükəsizliyini yoxlamaq səlahiyyəti verilib. "Azəriqaz"ın yerli idarələri öz ərazilərindəki bütün evlərdə, obyektlərdə mütəmadi baxış keçirməli, abonentlərin qaz təhlükəsizliyinə necə riayət etdiklərini yoxlamalıdırlar. Əlbəttə, bunu tez-tez etmək texniki cəhətdən və vaxt baxımından mümkün olmaz, amma uyğun bir müddət müəyyənləşdirilib ardıcıl olaraq həmin müddətdən bir bu yoxlamalar aparılmalıdır. Qaz təhlükəsizliyini kobud pozan, qaz sistemində özbaşına yolverilməz dəyişikliklər edənlər müvafiq qaydada cəzalandırılmalıdır. Bundan başqa maarifləndirmə tədbirləri artırılmalıdır".

**E.Bayramlı deyib ki, normal işləməyən, standartlara cavab verməyən qaz cihazları təhlükə mənbəyidir. Karbon-monoksid qazın natamam yanması nəticəsində əmələ gəlir:** "Çünki yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon 4-oksidə çevrilərək tüstü boruları vasitəsilə xaric olunur. Qarşıdan qış gəlir və qaz cihazlarına düşən yük artacaq və təbii olaraq təhlükə də artacaq. Ona görə də abonentlər qaz sisteminin yoxlanmasını təmin etməli, qazdan istifadə zamanı müvafiq təhlükəsizlik qaydalarına riayət etməlidirlər ki, faciə baş verməsin".

**Şəymən Bayramova**

# "Əzbərçi" nəsil yetişib

## Ona görə yüksək bal toplayanlar ali məktəblərdə yaxşı oxuya bilmirlər

**Diksiya mütəxəssisi Cəlalə Nəzəroğlunun "Məncə, Azərbaycanda tələbələrin əksəriyyəti abituriyent dövründə daha savadlı olurlar..." postu sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub. Mövzu ətrafında fikir mübadiləsi aparan istifadəçilərin fikirləri haçalanıb.**

Postla bağlı rəy bildirən istifadəçilərin bir qismi hesab edirlər ki, abituriyentlər ali məktəbə qəbul olduqda oxumaq missiyasını bitmiş sayırlar.

Digərləri isə universitetlərin təhsil vermədiyini, vaxt itkisi olduğunu iddia edir.

**Ramin Həsənov hesab edir ki, abituriyentlər ali məktəbə qəbul olmaq üçün əzbərçilik edirlər:** "Konkret mövzuları və təxmini test tapşırıqlarını əzbərləyib ali məktəbə daxil olurlar. Əzbərçilikdə isə həmin elmin dərsin mənalarını dərindən bilmədiklərinə, qavramadıqlarına görə tez yaddan çıxır. Ona görə də ali məktəbdə oxuduqları dövrdə heç nə yadlarında qalmır".

**Zülfiyyə Yusifova adlı istifadəçi isə hesab edir ki, bunun səbəbi ixtisasını sevməməkdir.** Balı hara düşür, oranı yazırlar deyə belə olur.

Bəzi valideynlər üçün uşağı təkcə universitetə girsin bəsdir. "Sən qəbul ol, qalanı bizlikdir" demək. İmtahanları pul ilə keçmək.

**Tahir Əliyevə görə, orta məktəb nəzəriyyəni, ali məktəb seçilən peşənin praktikasını öyrətməlidir:** "Orta məktəblərdə təhsil ali məktəbdən qat-qat artıqdır. Ali məktəbdə dərs keçilmir, seçdikləri peşə sevdirilmir".

**A.V.Həsənova isə deyib ki, şagirdlər 11 il dərsi yola verirlər. 3 il hazırlıq keçib nəticədə bal toplayırlar:** "Potensiallarına uyğun yox, ballarına uyğun ixtisas seçirlər. Universitetə çatan kimi başlanır dərs tələb olunmağa. Bunlar da alışmayıblar sistemli dərs oxumağa. Ona görə də nəticə nə olur? Tələbə dərsdən soyuyur və gününü keçirməyə gəlir. Seçdiyi peşəyə həvəsi olmaması müəllimi də həvəsdən salır. Diplom xatirinə gələnlər dərsə də mane olur, oxumadan qiymət almağa çalışır, məktəbi də yola verib, universitetdə də yola verilməyə çalışır və adı olur universitet bunda həvəs yaratmadı. Sən qonşuya göstəriş olsun deyə ali təhsil almağa çalışsan, nəticədə heç nə əldə etməyəcəksən".

**Sosioloq Əhməd Qəşəmoğlu da "Şərq"ə açıqlamasında problemin çox ciddi və dərin səbəblərinin olduğunu deyib:** "Mən universitetdə dərs deyirəm. İllərdir problemin içərisindəyəm. Zaman-zaman bu məsələni araşdırmışam da. Audiotoriyada tələbələrimlə də bu mövzuda söhbət aparıram. Baxırsan ki, universitetə 500-550 balla qəbul olan tələbələr semestr ərzində dərs oxumur, mühazirələrə qulaq asmırlar. Soruşuram ay oğlum, ay qızım, bu necə olur? 500-dən çox bal yığmısız, amma indi suallarımın heç birinə cavab verə bilmirsiniz. Məlum olur ki, kimisi orta məktəbdə valideynlərin qorxusundan, kimisi də qonşuların yanında valideynləri üzü ağ, başı uca olsun deyə oxuyublar. Deyilsin ki, filankəsin uşağı universitetə yüksək balla daxil oldu.

Sözsüz ki, qəbul olduqdan sonra da oxumağa davam edən, universitet dərslərinə hazırlıqlı gələn tələbələr var, amma onların sayı azdır".

**"Azərbaycanda tələbələrin əksəriyyəti abituriyent dövründə daha savadlı olurlar..." yanaşmasına gəldikdə isə sosioloq hesab edir ki, orta məktəb şagirdləri savadlı olmurlar. Onlar sadəcə, universitetə daxil olmaq üçün lazım olan fənləri əzbərləyirlər:** "Əzbərçilik isə məlumatı mexaniki, şüursuz şəkildə yadda saxlamaqdır. Bu zaman məlumatın beyinə həkk olunması səthi olur və qısa müddət sonra yaddaşdan silinir. Çünki beyin ciddi mənada cəhd etmədiyi və idrak prosesi aktivləşmədiyi üçün məlumat qısa müddət yadda qalır. Çox təəssüf ki, indiki nəsil "əzbərçi"dir. Bizim zamanımızda belə deyildi. Dərslər yaradıcı keçirilir, öyrəndiyimiz dərslər üzərində düşünüb, təhlillər aparırdıq ki, öyrəndiyimiz informasiyanı dərk edək. Bunun isə günahkarı pedaqoji təhsil sisteminin uzun müddət rüşvət üzərində qurulmasıdır.



*"Problemin həlli üçün təhsil siyasətində ciddi islahatlara gedilməlidir. İlk olaraq qəbul imtahanlarından başlamaq lazımdır"*

Yaşlı adamlar xatırlayırlar ki, 80-ci illərdə ali məktəblərə qəbul imtahanları biabırçı bir vəziyyətdə idi. Rüşvət adi norma halına keçmişdi. Öyrəndiyini mənimsəmək və izah etmək təcrübəsi olmayan həmin müəllimlərin dərs dediyi şagirdlər də təbii olaraq əzbərləməklə dərsi yola veriblər. Və bu uşaqlar düşünürlər ki, əsas olan universitetə daxil olmaqdır. "Təki əlimiz bir yerə ilişsin" düşüncəsi ilə universitetə qəbul olan uşaqlar "onsuz da pulumu verib diplomumu alacam" düşüncəsi ilə də davam edirlər. Universitetlərin də əksəriyyəti ödənişli olduğuna görə ali məktəb rəhbərliyi oxumayan tələbələrin qovulmasında maraqlı deyil. Ona görə mən həmişə deyirəm ki, indiki diplomların əksəriyyəti təhsil haqqında ödənişin qəbzidir. Yəni valideynlər 4 il universitetə pul köçürür, universitet də 4 ilin sonunda həmin ödənişi təsdiq edən qəbz verir. Təbii ki, istisnalar var".

**Sosioloq deyib ki, xarici universitetlərdə təhsil sisteminin üstünlüyü odur ki, birinci semestrdə auditoriyada oturan uşaqların dördüncü kursa 30-40 faizi gəlib çıxır.** Yerdə qalan 60-70 faizi oxumadığına görə ya universitetdən çıxarılır, ya da kursda qalır. Ona görə də universitetə daxil olan tələbələrin oxumaqdan başqa yolu qalmır: "Yəni xaricdə tələbələr qiymət almaq üçün oxumurlar, bilik naminə oxuyurlar. Onlar universitetə öyrənmək, sənətinə yiyələnmək üçün gəlir və dərs vaxtından səmərəli istifadə edir. Təəssüflə qeyd etmək lazımdır ki, bizdə bəzi tələbələr dərsə savad almaq üçün yox, diplom almaq üçün gəlir. Bizim tələbələr orta məktəbdən sonra biliklərinin artırılmasının qayğısına qalmırlar. Tələbələrin universitetdə oxumamasının əsas səbəblərindən biri də onların təhsil aldıqları ixtisasa təsadüfi düşmələridir. Hər zaman tövsiyə edirəm ki, gənclər həyatda hansı peşədən zövq ala biləcəklərsə, həmin peşənin arxasıyca getsinlər. İnsan zövq aldığı peşə olduqda daxili potensialı daha çox üzə çıxır. Məsələn, ilk baxışda universitetdə kitabxanaçılıq fakültəsi müqayisədə digər fakültələrdən zəif görünə bilər. Amma bu fakültəyə daxil olub bacarıqlarını inkişaf etdirən o qədər parlaq şəxsiyyətlər olub ki, heç başqa fakültələr o cür peşəkarlar yetişdirə bilməyib. Abituriyentlər universitet seçərkən mütləq onlar barədə ətraflı məlumat öyrənib sonra seçim etsinlər".

**Ə.Qəşəmoğlunun sözlərinə görə, problemin həlli üçün təhsil siyasətində ciddi islahatlara gedilməlidir. İlk olaraq qəbul imtahanlarından başlamaq lazımdır. Qəbul imtahanlarının indiki vəziyyətdə keçirilməsi o deməkdir ki, biz hələ obyektiv yolla imtahan keçirə bilmirik:** "Konkret olaraq test üsulu ilə imtahanların keçirilməsi, birbaşa orta məktəbdə tədrisin keyfiyyətinə olduqca mənfi təsir edir. Əksər şagirdlərdə əzbərçilik vərdişləri yaranır. Hər bir dərsin daha məzmunlu, yaradıcı şəkildə öyrənilməsi məsələsi arxa plana keçir. Repetitorluq fəaliyyəti, bunun hesabına dərsdən yayınma halları xeyli artır. İndi testlə qəbul imtahanları zamanı tez-tez həyəcanlanan şagirdlərin öz səviyyəsindən xeyli az bal topladığının şahidi oluruq. Ali məktəblərə tələbə qəbul sistemi ləğv olunmalıdır. Biz artıq bir sıra xarici ölkələrdəki kimi orta məktəblərin verdiyi qiymətlər əsasında qəbul sisteminə keçməliyik. Orta məktəblərdə elə şərait yaranmalıdır ki, onlar 11 ildə öz şagirdlərini qabiliyyətləri üzrə ixtisas seçməyə istiqamətləndirsinlər. Özünüz təsəvvür edin, bir var ki, bir gəncin hansı ixtisası seçməsini 11 ilə müəyyənləşdirmək, bir də var bir neçə saat ərzində. Həmin bir neçə saat ərzində yalnız əzbərçiliyə diqqət vermiş şagird həyəcanlanaraq ciddi səhvlər edə bilər. Amma ola bilsin ki, o, qabiliyyətli bir gəncdir. Adi təsadüf üzündən eyni şagird bir neçə yüz bal itirə bilər. Bir də var ki, 11 il ərzində orta məktəb qayğı ilə onun bütün cəhətlərini nəzərə alaraq biliyini qiymətləndirsin və onun hansı sahələrdə qabiliyyətinin olduğu barədə tövsiyələr yazsın. Bu zaman həmin orta məktəbin rəhbərliyi, şagirdə qiymət verən müəllimləri ciddi cəza almalıdır. Təbii ki, biz bu sistemə keçsək, həmin sistem mütəxəssislər tərəfindən xeyli təkmilləşdirilməlidir. Özünüz təsəvvür edin, bu sistemə keçməmiz xeyli neqativ halların qarşısını almaqla dövlətin büdcəsinə nə qədər kömək edər. Baxın, indi məsələ qaldırılır ki, qəbul imtahanları da ödənişli olsun. Həmin itkinin də qarşısı alına bilər. Eyni zamanda orta məktəblərin məsuliyyəti xeyli artar. Bu, orta məktəblərdə təhsilin daha məzmunlu təşkilinə, dərsə davamiyyətə ciddi kömək edə bilər. Orta məktəblər bir azdan ali məktəblərin yüzlərlə müəllimi ilə üz-üzə qalmağa risk etməz. Rüşvət mexanizmi yaratmağa çalışsalar belə, ciddi uğur qazana bilməzlər".

**Şəymən**



## Azər Paşa Nemətov Mustafa Kurtla görüşüb

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətov Türkiyə Dövlət Teatrlarının baş müdiri Mustafa Kurtla görüşüb.**

Teatrın mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, qonağı rəhbərlik etdiyi teatrda görməkdən məmnun olduğunu deyən Azər Paşa Nemətov mədəniyyət sahəsində, teatr sənəti istiqamətində iki qardaş ölkə arasında olan səmərəli əməkdaşlıqdan danışıb, münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Qeyd olunub ki, təşkil olunan müxtəlif festivallar, master-klass və seminarlar səhnə fəaliyyəti ilə məşğul olan teatr xadimlərinin peşəkarlığının artmasına xidmət edir.

Görüşdə həmçinin qeyd olunub ki, Akademik Milli Dram Teatrı 5-9 may tarixlərində Türkiyədə keçirilən Qara dəniz ölkələrinin 22-ci Beynəlxalq Teatr Festivalında V.Şekspirin "On ikinci gecə, yaxud hər nə istəsəniz" tamaşası ilə Azərbaycanı təmsil edib və səhnə əsəri böyük uğurla təqdim olunub. Milli Teatr festival təşkilatçılarının və tamaşaçıların xahişi ilə öz səhnə əsərini iki dəfə Trabzon Dövlət Teatrının Haluk Ongan səhnəsində nümayiş etdirib.

Türkiyə dövlət teatrlarının baş müdiri Mustafa Kurt səmimi qarşılanmaya görə təşəkkürünü bildirib, Akademik Milli Dram Teatrının yaradıcı və texniki imkanlarını yüksək qiymətləndirib. Qonaq qeyd edib ki, Türkiyə dövlət teatrları Akademik Milli Dram Teatrının Türkiyənin müxtəlif şəhərlərinə qastrol səfərinə, eyni zamanda beynəlxalq festivallarda iştirakında maraqlıdır. Bu, əməkdaşlığın gələcək perspektivləri, yaradıcı əlaqələrin güclənməsi üçün müsbət zəmin hazırlayacaq. Mustafa Kurt teatrın səhnəsində nümayiş olunan "Ah, bu uzun sevda yolu" tamaşasına baxıb.

# Qrip xəstəliyi tüğyan edir

## Hazırkı vəziyyət pandemiya ilə bağlı deyil



*"Sağlam adamlar da maska taxmağa, məsafə saxlamağa diqqət etsələr, yaxşı olar"*

**"İndi payız-qış mövsümü olduğu üçün kəskin respirator xəstəliklər üstünlük təşkil edir".**

**Bunu "Şərq"ə açıqlamasında həkim-infeksionist Sadiqə Əliyeva son günlər kütləvi şəkildə insanların səhhətində yaranan problemlərdən danışarkən deyib.**

O qeyd edib ki, xəstəliyi laboratoriyada müayinə etmədən hansı virus olduğunu demək çətindir:

"Yalnız laborator analiz nəticəsində bilinir ki, bu, koronavirusdur, qripdir, yoxsa renavirusdur. Ümumiyyətlə, soyuqlama halları da çoxalıb. İnsanlar geyimlərinə diqqət etmirlər. Bəzən nazik geyinir, bəzən də qalın geyinib özünü tərlədir. Bütün bunlar isə soyuqdəyməyə səbəb olur. Bundan qorunmaq üçün isə qidalanmaya və geyimə diqqət etmək lazımdır. Xəstə insanlar maskadan istifadə etməlidir ki, digərlərini yoluxdurmasın. Ümumiyyətlə, COVID-19 zamanı deyilən qoruyucu tədbirlər bütün respirator virus infeksiyalarına aiddir".

**Məsələyə münasibət bildirən tibb elmləri doktoru professor Adil Qeybulla isə vurğulayıb ki, hazırda qışdır və respirator xəstəliklər davam edir:** "Pandemiyadan əvvəl də mövsümi qripə bənzər bu xəstəliklər var idi. Yuxarı tənəffüs yollarının iltihabını törədən 10-dan çox infeksiya var. Bunlardan biri də qripdir.

Hazırda da bu proses davam edir. Nəzərə alsaq ki, pandemiya xaric, koronavirusun 4 növü hər il mövsümü soyuqdəymə xəstəliyi törədir, ona görə də hazırkı vəziyyət pandemiya ilə bağlı deyil.

Amma pandemiya da hələ bitməyib. Çünki Dünya Səhiyyə Təşkilatının bununla bağlı rəyi yoxdur.

"Omicron"un isə mutasiyaları davam edir. Bu virusun yoluxuculuq indeksi yüksək olsa da, onun ölümcüllük qabiliyyəti xeyli aşağı düşüb. Ümumiyyətlə, xəstəlik real olaraq ortadadır və yoluxmalar davam edir.

Bunlardan qorunmaq üçün isə xəstə adamlar yataq rejiminə keçərək maye qəbul etməli və həkim tövsiyələrini yerinə yetirməlidir. Sağlam adamlar da maska taxmağa, məsafə saxlamağa diqqət etsələr, yaxşı olar".

**Nihat Müzəffər**



## Xoşqədəm Doğuşun oğlu olduğunu iddia edən oğlanı tapdı

**Aparıcı Xoşqədəm Hidayətqızı həyat yoldaşı, müğənni Doğuşun oğlu olduğunu iddia edən gənci tapıb.**

Bu haqda o, "Günaydın, Azərbaycan" verilişində deyib. O bildirib ki, həmin gənc gələn həftə Azərbaycana gələcək və verilişdə qonaq olacaq:

*"DNT analizi etdirəcəyəm".*

*Qeyd edək ki, Türkiyədə küçədə sorğu aparılarkən bir oğlana "Hansı müğənnini sevirsən" sualı ünvanlanıb. O, isə "atamı. Doğuşu" cavabını verib.*

### Elanlar

Cavadova Nuridə Xanlar qızına məxsus Həmzə Babaşov 5 N, mərtəbə 15, mənzil 125-in müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Daşınmaz əmlakın dövlət reyestri xidməti tərəfindən Hüseynov Rəvan Zamin oğlunun adına verilmiş N:0488485 seriyalı çıxarış və AA002581 nömrəli torpaq sahəsinin planı və ölçüsü sənədləri itdiyi üçün etibarsız sayılır.

Milli Aviasiya Akademiyası, Hava nəqliyyatı fakültəsi 2121a qrupu Abiyeva Ləman Yalçın qızına məxsus tələbə kartı itdiyi üçün etibarsız sayılır.

Balakən şəhəri Hərbi Komissarlığı tərəfindən Allahyarov Akif Gündüz oğluna verilmiş Əfqanıstan veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**"Bakı Hərrac Mərkəzi" MMC**

Lot 412/22. Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli küçəsi ev 27, mənzil 28. Təkrar hərracdakı satış qiyməti 122500 manat. Əmlakın 19 dekabr 2022-ci il tarixində keçirilən təkrar hərracı baş tutmamışdır. Növbəti təkrar hərrac 29 dekabr 2022-ci il tarixində saat 11:00-da keçiriləcəkdir. Satış qiymətinin 5 %-i həcmində beh hərrac təşkilatına ödənilməlidir. Alış qiyməti 7 təqvim günü ərzində sifarişçi icra şöbəsinin hesabına ödənilməlidir. Açıq hərracda iştirak etmək üçün lazımi sənədlər: F/Ş şəxsiyyət vəsiqəsi, H/Ş təsis sənədləri.

Ünvan: Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, Badamdar şossesi 27. (AVİS" aptekin arxası). Tel: 055-206-66-67, rəsmi sayt: http://e-lot.az

# "Yalvarıram sizə, qurtarın bu uşağı!"

## Kəmalə Ağazadə: "Totu" ləqəbli uşaq ölür, 2 il ərzində görün uşaq nə hala qalıb?"

**"Azərbaycan Uşaqlar Birliyi"nin sədri Kəmalə Ağazadə sosial şəbəkədə "Sevgi" Uşaq Sığınacağında saxlanılan uşağın vəziyyətinin ağır olması ilə bağlı həyəcan təbili çalıb. Birlik sədri sosial şəbəkə vasitəsilə ictimaiyyətə səslənib:**

"Neçə vaxtdır qapadılması barədə qərar verilən, hələ də istintaq gedən (məndə olan məlumata görə, istintaq hələ davam edir), hər gün onlarla sosial şəbəkə izləyicisi Sevgi Uşaq Sığınacağı adı ilə instaqramda paylaşımları olan Könül adlı xanımın davranışı, uşaqlara olan münasibəti ilə bağlı müraciətlər edir. Neçə dəfə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə istiqamətləndirmişəm, Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini ilə bu barədə danışıqlarımız olub, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları ilə danışdığımda da bir söz deyilib:" Kəmalə xanım, istintaq gedir, gözləyirik!". Əzizlərim, gözləyirik?!.. "Totu" ləqəbli uşaq isə ÖLÜR!!! 2 il ərzində görün uşaq nə hala qalıb? Uşağın videosunu paylaşıb kartının nömrəsini qoyan qadın bu aylar ərzində bu uşaq üçün nə edib, soruşmusunuz? Ümumiyyətlə, qəyyumluğu verilməmiş bir uşaq bu adamın yanında nə gəzir? Dəfələrlə mənə yazıblar ki, uşaq döyülür!!! Amma mən faktlara əsaslana bilərəm. Hazırda fakt uşağın bu vəziyyətdə olan görüntüsüdür!!! Hörmətli dövlət qurumları!!! Yalvarıram sizə, qurtarın bu uşağı!!! Ölür uşaq... Sosial Xidmətlər Agentliyi, gedin qiymətləndirmə aparın, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi uşağı tam müayinəyə götürün, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, yardım edin!!! Bakı şəhər Baş Polis İdarəsi, uşağın o qadının əlindən alınmasının həlli yolunu tapın!!! Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, məhkəmə qaydasında bu qadının fəaliyyətini məhdudlaşdırın!".



**Daha sonra K.Ağazadə bunları əlavə edib:** "P.S. Bilirəm ki, əks tərəf hücuma keçəcək, mən qorxmuram!!! Bir uşaq xilas olacaqsa bütün zərbələrinizə hazıram!!! Bu səhifəyə cahil də baxsa nə daş verdiyini anlayacaq..."

Videodan görünür ki, uşağın durumu hədsiz ağırdır. Ayaq üstə güclə dayanan uşaq dəqiqələrcə gözlərini qırpmır, hətta ona uzadılan yeməyi də nə baş verdiyini anlamadan, anlaqsız vəziyyətdə, qeyri-ixtiyari qəbul edir. Uşağın üz cizgilərində heç bir ifadə yoxdur. Uşaq "robot", həm də qorxudulmuş "robot" təsiri bağışlayır. Körpənin vəziyyəti sosial şəbəkələrdə ciddi müzakirə edilməkdə və onu bu vəziyyətə salanlar ən kəskin ifadələrlə qınanmaqdadır.

**K.Ağazadənin paylaşımından sonra DİN məsələyə reaksiya verib. DİN Mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyev APA-ya bildirib ki, həmin məsələ ilə bağlı polis və prokurorluq orqanlarında araşdırılma aparılıb:** "Aparılmış araşdırma ilə toplanmış materiallar baxılması üçün məhkəməyə göndərilib. Hazırda həmin material məhkəmə icraatındadır".

*Qeyd edək ki, hazırda gərgin vəziyyətdə olan uşaq barəsində oktyabr ayında "Segvi Uşaq Evi" imzasıyla instagramda paylaşım edilib. Paylaşımda "Xeyirsevər, mərhəmətli insanların dəstəyinə ehtiyac var. Totuya genetik analiz olunmalıdır. Dəstəyinizə ehtiyac var" sözləri yazılıb. Həmin paylaşımda fotosu yerləşdirilən uşaq, normal vəziyyətdə görünür, üzü gülərdir. 2 ay içində nə baş verib ki, uşaq belə dəhşətli vəziyyətə düşüb? Feysbuk səhifəsində rəy yazanlar uşağın müalicəsi adı altında külli miqdarda pul toplandığını, lakin bu vəsaitin hara, necə xərcləndiyini, uşağın niyə indiyədək müalicə almamasını hüquq-mühafizə orqanlarının araşdırmalı olduğunu, günahkarların cəzalandırılmasını tələb edirlər.*

**Məlahət Rzayeva**

# Daha yaxşı nəticə görəcəyik

## Hər semestr xaricə 400 nəfər tələbə göndərilməlidir



**"İki dəfə elm və təhsil naziri Emin Əmrullayevlə İKT sahəsi üzrə mütəxəssislərin hazırlanması ilə bağlı görüşmüşəm".**

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deputat Vahid Əhmədov deyib. Millət vəkili bildirib ki, dövlət xətti ilə xarici ölkələrin ali məktəblərində İKT sahəsində ciddi mütəxəssislərin hazırlanmasına diqqət artırılmalıdır: "Təklif edirəm ki, bu sahədə gəncləri xaricə oxumağa göndərək və onlarla belə müqavilə bağlayaq ki, yenidən geri qayıtsınlar. Yoxsa göndəririk oxumağa, lakin orada olan yaxşı yaşayış, əməkhaqqının yüksək olması səbəbindən gənclər geri qayıtmırlar, orada qalırlar. Çalışmaq lazımdır ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Elm və Təhsil Nazirliyinin arasında da bu sahədə müqavilə olsun".

**Təhsil eksperti Kamran Əsədov isə "Şərq"ə açıqlamasında deyib ki, hazırda ali təhsilin maliyyələşdirilməsi aktiv olaraq yeni proqram əsasında həyata keçirilir:** "2019-2023-cü illəri əhatə edən "Dövlət Proqramı" gənclərin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil alması və məzun olduqdan sonra ölkəmizdə işlə təmin olunması prosesinin tənzimlənməsi baxımından mühüm əhəmiyyətə malikdir".

Ekspertin sözlərinə görə, əvvəlki zamanla müqayisədə dövlətimiz özünün daha çox ehtiyac duyduğu strateji sahələrə kadrların hazırlanması üçün xaricə tələbə göndərir. Əvvəllər istənilən ixtisaslar maliyyələşdirilirdisə, indi yalnız dövlətin müəyyən etdiyi ixtisaslarda təhsil alanlar maliyyələşəcək: "Dövlət Proqramı"nda daha çox ölkənin və dünyanın inkişafına uyğun olan sahələr prioritetləşdiriləcək. Texniki, texnoloji sahələr, mühəndislik, İT, kibertəhlükəsizlik, hərbi sənaye, kənd təsərrüfatının texnoloji inkişafı ilə bağlı sahələr, fundamental elmlər - kimya, biologiya, fizika, geologiya, onların kəsişməsi olan biokimya, bioinformatika, iqtisadiyyat, maliyyə, dövlət idarəçiliyi sahələri prioritet olacaq. Proses zamanı digər sahələrin də prioritetləşməsi gözlənilir. O sahədə ki, ölkənin inkişafına daha çox töhfə vermək mümkündür. Ötən illərdə dövlət proqramı ilə xaricdə təhsil alan tələbələrin ölkəyə qayıdıb-qayıtmaması ilə bağlı məyarlar yox idi. İndi isə belə deyil. Xaricə gedən tələbələrin mütləq şəkildə ölkəyə qayıtması tələb olunur və onlar 5 il Azərbaycanda işləməlidirlər. Ölkəmizə qayıtmayan tələbələr onların təhsili üçün ödənilən vəsaiti geri qaytarmalıdır. Bundan başqa, indiki meyarlara əsasən universitetlərdəki ixtisasların reytingli olması lazımdır, lakin əvvəl belə bir tələb yox idi. Dövlətimizin xaricdə təhsillə bağlı siyasəti budur ki, daha çox ixtisaslı mütəxəssislər yetişsin. Əlbəttə, bu da yaxşı haldır".

**Ekspertin sözlərinə görə, vəsaitlərin ödənilməsində də yenilik edilib:** "İndiki xərclər çoxalıb və tələbələrin bütün xərclərinin ödənilməsi dövlətin diqqətindədir. Hər semestr 400 nəfər tələbə xaricə göndərilməlidir. Fikrimcə, bu dəfə daha yaxşı nəticə görəcəyik. Əvvəlki nəticələr də pis deyil, hazırda dövlət orqanlarında kifayət qədər çalışanlar var ki, onlar 2007-2015-ci illəri əhatə edən proqramdan məzun olublar. Təbii ki, bu da bizim üçün yaxşı xəbərdir".

**Şəymən**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3733

ŞƏRQ 20 dekabr 2022-ci il № 232 (5753) (çərşənbə axşamı) 



## "Ömrünün sonuna qədər unutmayacaq"

Dünya Kubokunun taleyini dəyişən epizod dünya mətbuatın gündəmindədir

**2022-ci il Dünya Çempionatının finalında Argentina nəfəs kəsən mübarizənin sonunda qələbə qazandı. Fransanın matçın əlavə vaxtlarında əldən verdiyi qol matça öz damğasını vurdu.**

Qarşılaşma 3-3 bərabərliyi ilə davam edərkən, cərimə meydançasının sağ diaqonalında topu qarşılayan Kolo Muani qapıçı ilə üz-üzə mövqedən yararlana bilməyib. Qasında nəhəngə çevrilən Emiliano Martbnez dünya çempionatının taleyinə təsir edib.

Fransız mətbuatı bu epizodu "Kolo Muani xoşbəxtliyin bir addımlığında idi" kimi şərh edib.

Yerli mətbuat ümumilikdə 24 yaşlı futbolçunu dəstəkləsə də, qələbə qolunu qaçırdığı üçün "onu ömür boyu unutmayacaq" deyə epizodu manşetlərinə daşıyıb.

**Turan**

## 6 metrlik qar tunelləri

Xilasedicilər gecə-gündüz var gücü ilə çalışır



**Türkiyənin Hakkari bölgəsinin Yüksekova qəsəbəsində 6 metrlik qar tunelləri görənləri təəccübləndirir. Xilasedicilər gecə-gündüz var gücü ilə çalışır.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, güclü qar səbəbindən Yüksekova rayon mərkəzinə 50 kilometr aralıda yerləşən İkiyaka və Göllerbaşı yolunda qarın qalınlığı insanların həyat şəraitinə mane olub.

Qalınlığı 6 metri keçən qarda çətinliklə hərəkət edən qruplar uçqun təhlükəsinə baxmayaraq, işlərini davam etdirirlər.

Yüksək hündürlükdə yaşayan vətəndaşların zərər çəkməməsi üçün gecə-gündüz çalışan qrupların açdığı yollar tunelləri xatırladır.

Qruplar 17 kilometrlik yolun yarısını açdığını, burada qarın qalınlığının yerlərdə 6 metrə çatdığını bildirib.

Digər tərəfdən rayon mərkəzində yaranan neqativ vəziyyətə komandaların hazır olması gözlənilir.

**Turan**



# Şəhərlər havada, hər şey pulsuz

Zaman səyyahı 2025-ci ildə III Dünya müharibəsinin başlayacağına dair dəhşətli proqnozlar verib



**Zaman səyyahı olduğunu iddia edən Al Bielek 2025-ci ildə III Dünya müharibəsinin başlayacağı ilə bağlı dəhşətli proqnozlar vermiş və gələcəkdə dünyada hökumət olmayacağını iddia etmişdi.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, 1927-ci ildə doğulan Al Bielek son anına qədər zaman səyahətçisi kimi tanınıb. 2011-ci ildə vəfat edən Bielek ölməzdən əvvəl böyük dünya müharibəsinin tarixi və gələcəkdə baş verənlərlə bağlı bir sıra iddialar səsləndirib. 2025-ci ilə xüsusi diqqət çəkən Bielek, gizli bir missiya üçün gələcəyə göndərildiyini söyləyib.

Zaman səyyahı Al Bielek ölməzdən əvvəl verdiyi müsahibədə "Filadelfiya eksperimenti" adlı layihənin bir hissəsi olduğunu, ABŞ ordusunun "görünməz" döyüş gəmisi yaratmağa çalışmaq üçün keçirdiyi çox məxfi sınaqlar apardığını söyləyib. O, 1940-cı ildə ABŞ Hərbi Dəniz Qüvvələrinə aid "USS Eldridge" adlı gəmidən qardaşı ilə birlikdə okeana atıldığını və sağaldıqdan sonra 2749-cu ilə teleportasiya edildiyini vurğulayıb.

2749-cu ilə teleportasiya edilən Al Bielek gördüklərini bir-bir danışıb. İddialardan birincisi dünyanın yaxın gələcəyi ilə bağlı olub. O, 2025-ci ilə qədər dünya hökumətlərin əksəriyyətinin dağılacağını və üç milyon insanın nüvə müharibəsində öləcəyini iddia edib. Al Bielek Avropanın böyük hissəsinin su altında qalacağını və demək olar ki, bütün İngiltərənin məhv olacağını bildirib.

Bielek həmçinin dünyada çox az şəhərin gələcəkdə salamat qaldığını və milli hökumətlərin və sərhədlərin olmadığını iddia edib. Bielek gördüklərini belə ümumiləşdirib: "Ordu, hərbi münaqişə yox və indi hər şey azad, pulsuz idi".

Gələcəkdə şəhərlərin strukturunun da dəyişəcəyini vurğulayan Bielek, bəzi şəhərlərin quruda, bəzilərinin havada asıldığını, uçan şəhərlərin isə dünyanın istənilən nöqtəsinə daşına biləcəyini bildirib. O, həmçinin bildirib ki, texnologiya o qədər inkişaf edib ki, səlahiyyətlilər bir neçə gün ərzində Üçüncü Dünya müharibəsindən gələn radiasiya zərərlərini və nüvə tullantılarını belə təmizləmək üçün kifayət qədər güclü olduqlarını görüb.

**Turan**



## 1500 illik qızıl tac oğurlandı

Rus əsgərlər Ukraynadakı muzeyləri yağmalayırlar

**Dünyanın ən dəyərli əsərlərindən biri olan Atillanın 1500 illik qızıl tacı, Ukraynadakı muzeyləri yağmalayan rus əsgərləri tərəfindən oğurlanıb. Tacın harda və kimdə olduğu bilinmir.**

**"Şərq" xəbər verir ki, ekspertlər rus əsgərlərinin yağmaladığı Melitopoldakı bir muzeydən oğurlanan Atillanın tacı ilə bərabər, İskit tayfalarının dövründən qalan qızıl sikkələrin də yerinin naməlum olduğunu bildiriblər.**

**Paytaxt Kiyevdəki Beynəlxalq Arxeologiya İnstitutunun nümayəndəsi Serhii Telizenko işğaldan sonra bu qədər böyük çapda itki ilə qarşılaşacaqlarını xəyal etmədiyini ifadə edib.**

**Telizenkonun sözlərinə görə, Donetskdəki yerli və Luqanskdakı "Rubizen" muzeyinin kolleksiyalarının da aqibəti barəsində heç bir məlumat yoxdur. Rusiya mediasından əldə edilən məlumata görə, bir çox muzeyə aid eksponatlar Krıma, oradan da Rusiya şəhərlərinə daşınıb.**

**Nihat**

## Dinozavr kəlləsi altı milyon dollara satıldı



**Nyu-Yorkdakı "Sotheby's" hərracında Tiranozavr reksin kəllə sümüyü altı milyon dollara satılıb.**

**Məlumata görə, qalıqları satılan heyvana Maksimus adı verilib.**

**Oxu.az xəbər verir ki, Londondakı Təbiət Tarixi Muzeyinin dinozavrlar üzrə baş mütəxəssisi, professor Pol Barret hərracı şərh edərkən qeyd edib ki, əgər əvvəllər qədim heyvanların skeletləri mütəxəssislər tərəfindən alınırdısa, indi incəsənət obyektləri ilə maraqlanan kolleksiyaçılar onları toplamağa başlayıblar.**

**Eyni zamanda, Barret qeyd edib ki, muzeylərin kolleksiyaçılarla rəqabət aparmaq üçün vəsaiti yoxdur.**

## 4 ay əvvəl ailə quran aktrisa ana oldu



**Türkiyəli aktrisa Yağmur Ün ana olub.**

**Axşam.az xəbər verir ki, bu barədə həkim Doğaz Ergezenlə ailə quran aktrisa sosial media hesabında yazıb. O, qızlarına Su Diana Ergezen adı verdiklərini açıqlayıb.**

***Qeyd edək ki, aktrisa son olaraq "Söz" serialında rol alıb. O, avqustda nikah masasına əyləşmişdi.***




# "2957-ci ilədək açmayın"

Qədim dövrlərə aid böyük ölçülü zaman kapsulu tapılıb

**ABŞ-nin İllinoys ştatının sakini uçuq-sökük axurun təmirinə başlayıb, yerə basdırılmış daşları qaldırarkən qədim dövrlərə aid böyük ölçülü şüşə qab (banka) aşkar edib. Şüşə qab sakinin diqqətini çəkib və maraqlanaraq qapağı açıb. Adam gördükləri qarşısında heyrətə gəlib. Qabın içindən 10 avqust 1894-cü il tarixli "Ayer's American Almanach" qəzetinin bir parçası, bir dəftər və taykeş ayaqqabı çıxıb.**



Qəzet səhifəsində 1890-cı illərdə Amerikada istifadədə olan dərmanların siyahısı vardı. Ortaya çıxan həqiqətlərə təkcə o adamı deyil, hər kəsi heyrətə düşürüb. Adam tapdığı əşyanı qardaşı oğluna göstərib. O da sosial mediada "əmim babamın vaxtilə keçilərini bəslədiyi köhnə axuru təmir edərkən daşlardan birinin altından şüşə qab tapıb" yazaraq şüşə qabın fotosunu paylaşıb. Görənlər bunun "zaman kapsulu" olduğunu iddia ediblər. Bundan bir neçə il əvvəl də oxşar əşya tapılmışdı və bu barədə Amerikanın məşhur elm və təbiət muzeyi Ecotarium tərəfindən məlumat verilmişdi. Bu, 40 il əvvəl basdırılmış kapsula idi. Muzeydə Günəş saatının altına basdırılmış kapsul bu günlərdə açılıb. Kapsulun içində "Worcester Lions" Klubu ilə bağlı xatirələrin yazıldığı səhifələr, şəxsi fotolar, pul, hətta ABŞ prezidentlərindən biri Ronald Reyqanın kluba göndərdiyi təbrik məktubu vardı. Əşyaların hamısı korlanmasın, uzun zaman xarab olmasınlar deyə, alüminium folqaya sarınmış vəziyyətdə olub. 2015-ci ildə ABŞ-nin Massaçusets ştatında tapılmış daha bir zaman kapsulu isə "2957-ci ilədək açmayın" xəbərdarlığı ilə diqqəti cəlb edir. Niyə 2957-ci il? Kapsulun Massaçusets Texniki Universitetinin professorları tərəfindən basdırıldığı müəyyən edilib. Kapsulun içində sintetik pensilin şüşəsi və kriyoton parçaları olub. Materiallar korlanmasın deyə professorlar kapsula arqon qazı və karbon-14 də əlavə ediblər. Professorlar kapsulun ağzını bağlamadan bir məktub da yazıblar: "Gələcək nəsillərin bizim dövrümüzdəki elmə nə dərəcədə hörmət etdəcəklərini bilmirik. Əmin olduğumuz budur ki, siz kainatla ilgili daha çox bilgilərə sahib olacaqsınız. Elm ardınca gedənlərə uğurlar diləyirik". Bu cür zaman kapsullarından daha 8 ədəd olduğu bildirilir.

**Məlahət**

## Güllə mobil telefona dəyib

Çavuş möcüzə nəticəsində sağ qaldı



**Təxminən 2 ay əvvəl mağarada gizlənən PKK terrorçularının açdığı atəş nəticəsində "Pəncə kilid" hərəkatı bölgəsində xidmət edən çavuş Mehmet Demirtaş (25) yaralanıb. Münaqişə zamanı sağ ayağına dəyən güllə mobil telefonun sayəsində yan keçib.**

Sağ cibindəki cib telefonu sayəsində sağ qalan Demirtaş ilk müdaxilədən sonra vertolyotla xəstəxanaya aparılıb.

2 ay Ankarada müalicə alan Dəmirtaş evə buraxılıqdan sonra ata-baba yurdu Trabzonun Of mahalına gəlib. Kıyıcıkdakı evində ailəsi ilə vaxt keçirən çavuş müalicə almaq üçün yenidən Ankaraya gedəcək.

4,5 ildir Suriya bölgəsində xidmət etdiyini bildirən çavuş Mehmet Demirtaş, "Yeni təyin olunduğum Siirt 3-cü Briqada Komandanlığında "Pəncə kilid" əməliyyatında iştirak etdim. Yaralanandan sonra yanımdakı həkim ilkin tibbi yardım göstərdi. Sonra yuxarı təpədə olan tibb bacısı yanıma gəldi və dərhal ikinci müdaxiləni etdi. Məni helikopterin olduğu əraziyə gətirdilər. Həmin vaxt huşumu itirmişdim. Xəstəxanada gözlərimi açdım. Müalicə müddətim 2 ay idi. Mən doğma şəhərimə qayıtdım. Sanki psixoloji cəhətdən hər şeyin öhdəsindən gəlmişəm. Yanımızda şəhid olan dostlarımız, komandirlərimiz var idi. Bundan sonra səhhətim imkan versə, özümü yaxşı hiss etsəm, həmişə şanlı formanı geyinməyə davam edəcəyəm" deyə bildirib.

Cibindəki mobil telefonun güllənin sürətini yavaşlatdığını qeyd edən Demirtaş, "Telefon sağ cibimdə idi. Güllə telefona dəydiyinə görə sağ qalmışam. Bunu mənə həkimlər dedi. Telefon olmasaydı, bəlkə də indi burada olmazdım. Allah bildiyi bir işdir. Həkimə, tibb bacısına, zabitimə və komandadakı dostlarıma ürəkdən təşəkkürümü bildirirəm. Mənim üçün çox mübarizə apardılar. Bizim etdiklərimiz mübarizə, birlik ruhudur, lazım gəlsə 10 şəhid, lap 10 min də verərik, ancaq asan yıxılmayacağıq. İnşallah, ömür boyu belə qalacaq. Bir aylıq məzuniyyətim var, sonra Ankaraya qayıdacağam. Həm nəzarət, həm də fiziki müalicə proseslər ilə işləməyən sol ayağımı işlətməyə çalışacağıq.

**Turan**

## İlk dəfə oğlunun üzünü göstərdi



**Məşhur müğənni Rihanna ilk dəfə övladının şəkillərini göstərib.**

Axşam.az xəbər verir ki, cütlük çimərlikdə fotosessiya etdirib. Həmin an onlar paparassilərin obyektivinə tuş gəlib.

Şəkillərdə AŞAP Rocky-nin odeyala bükülmüş oğlunu qucağında tutduğu əks edilib.